Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

16 İYUL 2019-cu il
№ 124 (4022)
Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

səh. 7

# VENESİYA KOMİSSİYASI PAŞİNYANIN KONSTİTUSİYA-HÜQUQ İSLAHATLARINI ALT-ÜST ETDİ...

Qeyri-neft Fransa şirkətlərinin Bakıya yürüməsinin Ermənistanda doğurduğu narahatlıq... səh. 3

Qarabağ münaqişəsinin davamının erməni cəmiyyəti üçün daha bir böyük fəsadı meydana çıxdı səh. 9

Paşinyançı elitanın ABŞ-da rəsmi rəyi dəyişməyə yönəlik növbəti uğursuz səfəri... səh. 7

Bioloq alimlər də Şəki Xan Sarayı qarşısındakı 500 illik ağacdan budaq qopmasını sırf təbii hadisə sayır səh. 10

Altı ayda investisiya qoyuluşu azı 3 faiz azalıb... səh. 12

Kişilər arasında müəllim ixtisasına maraq artmağa başlayır səh. 14

Adi qızdırma ilə özəl klinikalara aparılan uşaqlara ən bahalı analizlər yazılır - sifilis, QİÇS, hepatit... səh. 13

Kapron butulkalarda sərinləşdirici içki satışında qorxulu qayda pozuntusu - soyuducudan bayıra, bayırdan soyuducuya... səh. 13



səh. 8

## Ermənistan spikerinin bədbin ABŞ səfəri və Putinin adından Lavrovun Paşinyana xəbərdarlıq mesajları...

*İrəvanda jurnalistlərin Donald Tuska sual verməsinin qarşısı alındı...*





Azərbaycan XİN Keşikçidağda son təxribatla əlaqədar Gürcüstan səfirini söhbətə çağırdı və tələb etdi... səh. 2

Türkiyə - Rusiya S-400-lər anlaşması Cənubi Qafqazda Azərbaycanın da mövqeyini gücləndirir... səh. 6

Ermənistanın İranla qaz danışıqlarının pərdəarxası iki hədəfi - ucuz qaz və Rusiyanı qorxutmaq... səh. 5

səh. 3 General-polkovnik Vilayət Eyvazov gənc polis kadrlara "çox şərəfli peşə və həyat yolu seçdiklərini" xatırlatdı



səh. 5 ABŞ Türkiyəyə hansı sanksiyaları tətbiq edə bilər və mümkün nəticələr...



səh. 11 İrəvanın məşhur Sərdar Sarayının eksponatları Tiflisdə harada saxlanır?



səh. 12 Gömrüklərdə saxlanan tez xarab olan mallara məcburi sığorta təklifi...



səh. 15 Özəl orta məktəblərdə müəllimlərin seçilib yerləşdirilməsi dövlət nəzarətindən tam kənarda qalıb - strateji təhlükə mənbəyi...



## Rusiyada ermənin rəhbərlik etdiyi "Meqafon" şirkətinin Azərbaycana qarşı növbəti təxribatı...

**Rusiyanın mobil operatorlarından biri olan "Meqafon" şirkəti Azərbaycanın ərazi bütövlüyünə qarşı təxribatını davam etdirir.**




"Trend"in məlumatına görə, Rusiyanın ölkəmizin ərazi bütövlüyünü tanımasına baxmayaraq, "Meqafon" Qarabağ separatçıları üçün kommunikasiya xidmətləri təklif edir. Hətta şirkət öz saytında qondarma "Dağlıq Qarabağ"ı "müstəqil dövlət" kimi göstərib.

Qeyd edək ki, belə məlumatların yayılması 2018-ci ilin noyabrından, şirkətə erməni əsilli Gevork Vermişyanın rəhbər təyin edilməsindən sonra daha geniş vüsət alıb.

Həmyerlilərimizdən birinin mobil operatorun müştəri xidməti mərkəzinə bu təxribatın aradan qaldırılması barədə müraciətinə "Meqafon" şirkətinin cavabı belə olub: "Bizim dövlətimiz Dağlıq Qarabağı ayrıca dövlət kimi tanıyır. Şirkətimiz isə Rusiya Federasiyasının qanunlarına uyğun olaraq fəaliyyət göstərir".

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycanın Rusiyadakı Səfirliyinin birgə səyləri, eləcə də Rusiyada yaşayan həmyerlilərimizin ciddi etirazları nəticəsində "Meqafon" şirkətinin saytında olan bu təxribat xarakterli məlumat aradan qaldırılıb.

Bu kimi qanunazidd addımların respublikamız üçün informasiya təhdidləri və dövlət təhlükəsizliyi məsələlərində ciddi problem yaratması səbəbindən Azərbaycanın mobil operatorlarının "Meqafon" şirkəti ilə əməkdaşlığı dayandıracağı nəzərdə tutulur.

Xatırladaq ki, "Meqafon" Azərbaycanın Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisində telekommunikasiya xidmətlərini fəal inkişaf etdirir və öz tərəfdaşı olan "Qarabağ Telekom" şirkəti vasitəsilə rouminq xidmətləri həyata keçirir.

## Baş Prokurorluq Şəkidə 500 illik çinarın qırılmış budağının sağlam olduğunu bildirdi, lakin ekspertizalar təyin edildi

**Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətinin məlumatına görə, iyulun 14-də saat 12 radələrində Şəki "Xan Sarayı" abidəsinin ərazisində ağacın budaqlarının qəflətən qırılaraq insanların üzərinə düşməsi nəticəsində 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq dərhal Şəki rayon Mərkəzi xəstəxanasına yerləşdirilib, onlardan 13 nəfərə ilkin tibbi yardım göstərilərək evə buraxılıb, digər 2 nəfərin Şəki RMX, 4 nəfərin isə Bakı MKX-da yüksək ixtisaslı mütəxəssislər cəlb edilməklə intensiv müalicələri davam etdirilir.**

Baş vermiş hadisə ilə əlaqədar Rayon Prokurorluğunun əməkdaşları, eləcə də aidiyyəti nazirliklərin mütəxəssisləri dərhal həmin ünvana gedərək, ilk növbədə xəsarət alan şəxslərin təcili-tibbi yardım maşınları ilə xəstəxanaya çatdırılması təmin edilib, hadisə yerinə baxış keçirilib, qırılmış budaqlardan nümunələr, habelə digər əhəmiyyət kəsb edən maddi sübutlar və izlər götürülüb, mütəxəssislərin ilkin rəyləri alınıb.

Aparımış ilkin araşdırmalarla müəyyən edilib ki, hündürlüyü 34 metr olan Xan çinarının 21 metr hündürlükdə yerləşən 0,5 metr diametrli budağı qəflətən qoparaq aşağıda - 17 metr hündürlükdə olan nisbətən kiçik diametrli budağı da qıraraq hər iki budaq insanların üzərinə düşüb.

**Mütəxəssislərin ilkin rəyinə əsasən, budaqların qırılmasına səbəb əlverişsiz hava şəraiti olub. Belə ki, iyulun 12-dən başlayaraq saniyədə 8-12 metr sərətli küləklə müşayət olunan, xüsusilə iyulun 14-də səhər saatlarından başlayaraq 3 saat ərzində aylıq normanın 54% miqdarında (32 mm) aramsız yağış yağmışdır.**

İlkin müayinələrə əsasən müəyyən edilib ki, qırılmış əsas budaq sağlam olub, qurumağa və hansısa fiziki təsirlərə məruz qalmayıb.

Həmin budaqlarda virus və ya bakterioloji proseslərin gedib-getməməsinin müəyyən edilməsi üçün budaqlardan nümunələr götürülərək bioloji tədqiqatın keçirilməsi məqsədilə Ekologiya və Təbii sərvətlər Nazirliyinin mütəxəssisləri cəlb olunmaqla məhkəmə-bioloji və məhkəmə-trasoloji ekspertizaları təyin edilib. Ekspertizaların keçirilməsi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə həvalə olunub.

Hazırda araşdırmalar davam etdirilir.

# Azərbaycan XİN Keşikçidağda son təxribatla əlaqədar Gürcüstan səfirini söhbətə çağırdı və tələb etdi...



**Məlum olduğu kimi, 14 iyul 2019-cu il tarixdə saat 14:50 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavasının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilib.**

DSX-dən baki-xeber.com-a verilən məlumata görə, hadisə ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülməklə insident qısa müddət ərzində aradan qaldırılıb və DSX-nın şəxsi heyəti tərəfindən ərazidə təhlükəsizlik tədbirləri təmin edilib. Azərbaycan və Gürcüstan sərhəd nümayəndələri arasında görüş keçirilib, baş vermiş hadisə birgə araşdırılıb, gələcəkdə bu kimi hallara yol verilməməsi üçün görülməli olan tədbirlər müzakirə edilib.14 iyul 2019-cu il tarixində Gürcüstandan olan bir qrup şəxsin Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozaraq Azərbaycan ərazisində yerləşən Keşikçidağ mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum etməsi və onları nalayiq ifadələrlə təhqir etməsi ilə bağlı Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və ondan məsələ ilə bağlı müvafiq izahat istənib.

Azərbaycan XİN təəssüf hissi ilə qeyd edir ki, bu cür hərəkətlərə yol verilməsi Azərbaycan və Gürcüstan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin ruhuna tamamilə ziddir və bunu iki ölkə arasında qarşıdurmaya yönəlmiş təxribat kimi qiymətləndirir. Xəbərdə o da bildirilir ki, Azərbaycan XİN qarşı tərəfdən insidentin araşdırılaraq müvafiq tədbirlərin görülməsini və görülmüş işlərə dair özünün məlumatlandırılmasını tələb edib.

***Baki-xeber.com***

# ABŞ sanksiyalarına Türkiyənin ən təsirli cavabı - "İncirlik" bazası...



**Ötən həftə Rusiya istehsalı olan S-400 raketdən müdafiə komplekslərinin ilk partiyasının Türkiyəyə gətirilməsinə başlanıb. Sistemlərin ilk partiyasının əsas komponentlərinin Türkiyəyə çatdırılması bu həftə ərzində başa çatacaq.**

"İzvestiya" qəzeti öz mənbələrinə istinadən bildirir ki, tərəflər arasında bağlanan müqavilə tam olaraq 2020-ci ilin aprelinə kimi reallaşacaq. Vurğulanır ki, Rusiya hökuməti "S-400" komponentlərinin sürətli və fasiləsiz olaraq daşınması üçün hava körpüsü yaradıb. Eyni zamanda qeyd olunur ki, ilk dəfədir belə bir həcmdə texnikanın daşınmasında nəqliyyat aviasiyasından istifadə olunur.

Ancaq Türkiyənin Rusiyadan S-400 almasına əvvəldən qarşı çıxan ABŞ-ın Ankaraya qarşı sanksiya tətbiq edəcəyi gözlənir. Qərb mediası ABŞ-ın sanksiyalarla bağlı yekun qərarını verdiyi və yaxın günlərdə elan edəcəyini yazır. "Euronews" isə ABŞ-ın Türkiyəyə qarşı sanksiyalar paketinin iyulun 16-dan sonra elan olunacağını bildirir.

Bu arada, ABŞ-ın dövlət katibi Mayk Pompeo ölkəsinin Amerika qanunları gərəyi S-400 aldığına görə Türkiyəyə sanksiya tətbiq etmək məcburiyyətində olduğunu deyib.

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə "Washington Post" qəzetinə açıqlama verən Pompeo prezident Donald Trampın ABŞ qanunlarına əməl edərək bu barədə qərar verəcəyinə ümid etdiyini deyib.

Dövlət katibi CAATSA (Amerikanın əleyhdarlarına qarşı sanksiyalar vasitəsilə müqavimət, (Countering America's Adversaries Through Sanctions Act) nəzərdə tutaraq, qanunlara görə, Rusiya ilə önəmli silah sazişləri imzalayan ölkələrə sanksiya tətbiq edilməsinin məcburi olduğunu vurğulayıb.

"Qanunlar sanksiyaların tətbiq edilməsini tələb edir və mən əminəm ki, qanunlara əməl edəcəyik. Prezident Tramp bu qanunlara əməl edəcək" - Pompeo bildirib.

Prezident Trampın isə hansı qərarı verəcəyi hələlik məlum deyil. Bir müddət əvvəl Yaponiyada təşkil edilən G-20 Zirvəsində Ərdoğanla görüşən Tramp iki ölkə arasında yaşanan S-400 böhranına görə özündən əvvəlki prezident Barak Obama rəhbərliyini məsul tutmuşdu.

"Prezident Ərdoğan Obama rəhbərliyindən "Patriot" almaq istədi, lakin icazə verilmədi. Bu dəfə Rusiya ilə S-400 almaq üçün müqavilə bağladı və pul ödədi. Obama dövründə Türkiyəyə ədalətli davranılmadı" - Tramp deyib.

"Foreign Policy" dərgisi isə, ABŞ sanksiya tətbiq edəcəyi halda, Ankaranın Orta Şərqdə döyüşən ABŞ qüvvələri üçün çox önəmə sahib və eyni zamanda onlarla Amerika nüvə silahının saxlandığı "İncirlik" hərbi hava bazası təhdidini, yəni bazaya girişi məhdudlaşdırmaq məsələsini masaya yatıra bilər. Adı açıqlanmayan Amerika rəsmisi dərgiyə açıqlamasında, Türkiyə bu addımı atarsa, vəziyyətin dəyişə biləcəyini deyib.

## Bakı Polisi ANTV İnternet kanalı üçün icarəyə götürülmüş ofisdə baş verən hadisənin əsl mahiyyətini açdı

**"Azərbaycan Xalq Hərəkatının mərkəzi qərargahına basqın" edilməsi ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir.**

Dəqiqləşdirilmədən yayılan məlumatda iddia olunduğu kimi polis əməkdaşları tərəfindən ofisdə hər hansı axtarış aparılmayıb, ofis icarədar tərəfindən boşaldılmaqla qapadılıb. Bu barədə "Trend"ə Bakı şəhər Baş Polis İdarəsinin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib.

Məlumatda deyilir ki, Yasamal rayonu, H.B.Zərdabi küçəsində yerləşən qeyri-yaşayış sahəsinin sahibi tərəfindən mülkiyyət hüququ etibarnamə əsasında Binəqədi rayon sakini 1982-ci il təvəllüdlü Hüseyn Əliyevə verilməklə, o da əmlakı Cəbrayıl rayonu Çaxırlı kəndində qeydiyyatda olan Aslan Həmidlinin adına rəsmiləşdirməklə "ANTV.AZ" internet kanalına icarəyə verib. Ancaq icarəyə verilən obyektin təyinatı üzrə istifadə olunmadığı barədə məlumat alan H.Əliyev, bir qrup müxalifyönlü şəxsin ona məxsus ofisdə, icazəsiz yığıncaq keçirdiyini öyrənərək, oraya gəlib, binanın mühafizəkomendatura işçilərinin köməyi ilə onların oradan çıxmasını tələb edib. Onların dövlət əleyhinə şüarlar səsləndirməsi qonşuluqda işləyən digər icarədarların narahatlığına səbəb olduğundan H.Əliyev ofisi icarəyə verdiyi şəxsdən geri alaraq, müqaviləni ləğv edib, qapının açarlarını onlardan alıb. Bu barədə H.Əliyev polis müraciət edib.

Hazırda Yasamal RPİ 29 PŞ-də müvafiq araşdırmalar aparılır.

# Qeyri-neft Fransa şirkətlərinin Bakıya yürüməsinin Ermənistanda doğurduğu narahatlıq...

**Son vaxtlar Fransa ilə Azərbaycan arasında bütün sahələr üzrə əməkdaşlıq daha da dərinləşməkdədir. Xüsusilə də Fransanın qeyri-neft sektorunu əhatə edən şirkətlərinin Azərbaycan iqtisadiyyatına maraqları artıb. Bu yaxınlarda Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrinin ölkəmizə səfəri reallaşdı.**



## *Arzu Nağıyev: "Ermənistanın Rusiya və İranla sıx iqtisadi əlaqələri də Fransa şirkətlərini narahat edən faktor sırasına aiddir"*

MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö qeyd edib ki, fransız biznes ictimaiyyəti Azərbaycana böyük maraq göstərir. O, 170 min şirkətin üzv olduğu təşkilatın ölkəmizə gələn nümayəndə heyətinə bank, tikinti, enerji, ətraf mühit, tədbirlərin təşkili, yeni texnologiya sahələrini təmsil edən şirkətlərin daxil olduğunu və onların 12 sektoru əhatə etdiyini bildirib. "Bizim üçün bu şirkətləri dəstəkləmək və onları Azərbaycanın böyük potensialı olduğuna inandırmaq çox vacibdir", - deyən qonaq nümayəndə heyətində qeyri-neft sektorunu təmsil edən şirkətlərin əksəriyyət təşkil etdiyini vurğulayıb. Fransanın qeyri-neft sektorunu təmsil edən şirkətlərin Azərbaycana böyük maraq göstərməsi Ermənistanda ciddi narahatlıq doğurub. Onların isterikasından belə başa düşülür ki, rəsmi İrəvan Fransa şirkətlərinin həmin ölkədən kapitalını geri çəkəcəyindən bərk narahatdır. Ermənistanın narahatlığının başqa hansı səbəbləri ola bilər?

**Politoloq Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan-Fransa münasibətləri tək bu günün münasibətləri deyil:** "Məlumdur ki, hələ 1997-ci ildən ARDNŞ və Fransanın "Total" və "Elf" şirkətləti arasında Xəzərin neft ehtiyatlarının istismarı haqqında müqavilə imzalanıb. İki dövlət arasında ticarət dövriyyəsi milyard dollarlara bərabərdir. Fransanın 50-yə yaxın şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir, müxtəlif layihələr həyata keçirilir, buraya metropolitenlə, məişət tullantıları ilə bağlı və digər layihələr də aiddir. Təkcə Azərbaycanın telekommunikasiya peykinin orbitə qaldırılmasında fransız şirkətlərinin iştirakı bir misal olaraq kifayət edər. Təbii ki, burada hərbi sənaye kompleksinin də öz yeri var. Siyasi məsələlərə gəldikdə, Azərbaycan-Avropa əlaqələrində Fransa mühüm rol oynayır. Eyni zamanda, ATƏT-in Minsk Qrupunun üzvüdür, regional təhlükəsizliyə təhdidin qarşısının alınmasında hər iki dövlətin mühüm rolu var. Qeyd edildiyi kimi, enerji təhlükəsizliyinə təhdidin qarşısının alınmasında hər iki dövlətin rolu mühüm əhəmiyyətlidir, "Cənub Qaz Dəhlizi", "Total" və "Gaz de France" şirkətlərini buna misal çəkmək olar. Bizim əməkdaşlığımız, eyni zamanda, humanitar sahəni də əhatə edir. Burada mərkəzlərin, litseylərin yaradılmasını da göstərmək olar. Yəni bunları sadalamaqda məqsəd odur ki, Azərbaycan-Fransa əlaqələri Ermənistana çoxdan aydındır və əksinə, onlar çalışıblar ki, bu əlaqələr inkişaf etməsin. Lakin Fransa Azərbaycanı özünə daim bir etibarlı biznes və siyasi tərəfdaş sayıb. Ermənistan bu gün siyasi və iqtisadi cəhətdən, demək olar ki, iflasa uğrayan bir dövlətdir və Fransa da bunu dərk edir, sadəcə olaraq müəyyən lobbiçilik siyasətinə uyğun olaraq arabir humanitar addımlar atır. Ermənistanın Rusiya və İranla sıx iqtisadi əlaqələri də Fransa şirkətlərini narahat edən faktor sırasına aiddir. Çünki hər iki ölkəyə sanksiya tətbiqi var. Bir sözlə, Azərbaycan-Fransa yaxınlaşması Ermənistanı narahat etməyə bilməz. İqtisadi baxımdan da Ermənistanda Fransa şirkətlərini özünə cəlb edən heç bir perspektiv yoxdur".

> *"İqtisadi baxımdan da Ermənistanda Fransa şirkətlərini özünə cəlb edən heç bir perspektiv yoxdur"*

***Məhəmmədəli QƏRİBLİ***

# General-polkovnik Vilayət Eyvazov gənc polis kadrlara "çox şərəfli peşə və həyat yolu seçdiklərini" xatırlatdı

**DİN-in Mətbuat xidmətinin məlumatına görə, iyulun 15-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmalarına həsr olunmuş tədbir keçirilib.**

Nazir, general-polkovnik Vilayət Eyvazov iştirakçıları əlamətdar hadisə - zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflığı, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini, son illər bu praktikadan geniş istifadə olunduğunu xatırladıb.

Daxili İşlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov Nazirliyə Bakı qeydiyyatında olan 41 məzunun dəvət edildiyini bildirmiş, vakant vəzifələrin və namizədlərin siyahısını elan etmişdir.

Daha sonra püşkatma yolu ilə təyinat keçirilmişdir. Polisin orta rəis heyəti vəzifələrinə iddiaçı olanlar həmin vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkmiş və ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinə təyinat almışlar.

Yeri gəlmişkən, Akademiyanı fərqlənmə diplomu və əla qiymətlərlə bitirmiş 5 məzundan 1-i Nazirliyin Baş Təşkilat-İnspeksiya İdarəsinə, 1-i Baş Cinayət Axtarışı İdarəsinə, 1-i Baş Kadrlar İdarəsinə, 2 nəfər isə müstəntiq vəzifələrinə təyin edilmişlər.

Tədbirə yekun vuran Daxili İşlər naziri gəncləri şərəfli olduğu qədər yüksək məsuliyyət, işgüzarlıq, mükəmməl nəzəri bilik və praktik bacarıq tələb edən orta rəis heyəti vəzifələrinə təyin olunmaları münasibətilə bir daha təbrik edib, konkret tapşırıq və tövsiyələrini verib. O, xüsusilə qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin dönməzliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.



Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, digər hüquq-mühafizə orqanları ilə birlikdə gərgin səylər hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında Ulu Öndərimizin və möhtərəm Prezidentimizin vurğuladıqları kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlətimizin başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Nazir əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda, Vətənə sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

**Məlum olduğu kimi, ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyasında qəbul edilən Yekun Deklarasiyada Azərbaycanın təklifləri nəzərə alınıb. Müzakirə olunan bəyannamənin 22-ci maddəsində yer alan müddəada nəzərdə tutulur ki, ilk dəfə olaraq Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova ərazisində olan konfliktlərə eyni prizmadan yanaşılmalıdır.**

# Azərbaycan Qarabağa digər postsovet münaqişələrindən fərqli baxan son beynəlxalq qurumu da sındırdı - ATƏT PA...




Bəllidir ki, bundan əvvəl həmin 3 ölkənin adı başqa bir maddədə çəkilirdi. Azərbaycandakı mövcud probleme isə yalnız Dağlıq Qarabağ konflikti adı ilə başqa maddədə münasibət bildirilirdi.

İrəli atılan ən vacib və güclü addım məhz bu məsələlərin bir maddədə toplanması və vahid prizmadan dəyərləndirilməsi idi. ATƏT PA razılaşdırılmış format daxilində tərəflərin ilkin şərti olmadan ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanaraq, Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovada konfliktləri hərtərəfli və dayanıqlı, sülh əldə etmək məqsədilə konkret nəticələrə yönəlik müzakirə və danışıqları aktivləşdirməyi tövsiyə edir. Qeyd edək ki, Azərbaycan diplomatiyasının əldə etdiyi bu nailiyyətə Ermənistandan aqressiv münasibət bəslənir. Onların daxili auditoriyasında qəbul edilmiş sənədi Ermənistanın səriştəsiz diplomatik fəaliyyətinin nəticəsi kimi qəbul edirlər. Xatırladaq ki, Prezident İlham Əliyevin Azərbaycan diplomatiyası qarşısında qoyduğu tələblər o hələ AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olarkən ilk nəticələrini vermiş, AŞPA Azərbaycanın ərazi bütövlüyü ilə bağlı prinsipial qərarlar qəbul etmişdi. Sonradan digər beynəlxalq qurumların qəbul etdiyi qətnamələrdə Azərbaycanın haqlı tələbi nəzərə alınmış, postsovet ölkələrindəki münaqişələrlə bağlı vahid yanaşma formalaşmağa başlamışdı. 2017-ci ilin noyabrın 24-də Avropa İttifaqının sammitinin Yekun Bəyannaməsinin "Şərq Tərəfdaşlığı" ölkələrinə dair hissəsində "Şərq Tərəfdaşlığı"na üzv ölkələrin ərazisindəki münaqişələrin dövlətlərin ərazi bütövlüyü və dövlət suverenliyi əsasında həllinə çağırış müddəası öz əksini tapdı. Lakin uzun müddət ATƏT PA bir istisna təşkil edirdi. ATƏT PA-nın son qətnaməsi bu kontekstdə cənab Prezidentin hücum diplomatiyası siyasətinin növbəti uğurudur. Politoloq Zeynal Əmralıyev hesab edir ki, beynəlxalq qurumlar Ermənistan əleyhinə zaman-zaman bu cür qətnamələr qəbul edirlər: "Bu cür hallar danışıqlar zamanı diplomatik üstünlüyümüzü artırır. Məsələn, ATƏT PA-nın üzvlərindən kimsə Qarabağla bağlı Azərbaycan əleyhinə təbliğat apardıqda hüquqi sənəd kimi bunu göstərə bilərik. ATƏT Qarabağ məsələsində adi təşkilat deyil və birbaşa münaqişənin həlli ilə məşğul olur. Qurumun məsələ ilə bağlı Azərbaycanı müdafiə etməsi rəsmi Bakı üçün ciddi üstünlük deməkdir. Ümumiyyətlə, beynəlxalq təşkilatlarda mövqelərimizi gücləndirmək olduqca vacibdir. Çünki düşmən tərəfi hər zaman belə qurumlarda diplomatik hücuma keçir və burada öz lehinə qərarın çıxarılmasına çalışır. Lakin Azərbaycanın artan fəallığı bunun qarşısını alır". Politoloqun sözlərinə görə, ermənilərin beynəlxalq qurumlarda sıxışdırılması mühüm avantajdır: "Qəbul edilmiş sənəddə göstərilir ki, danışıqların formatı dəyişdirilə bilməz. Bu məqam ölkəmizin əsas tələbidir.

Beləliklə, İrəvanın qondarma qurumu danışıqlar masasına oturtmaq siyasəti bu qətnamə ilə növbəti dəfə iflasa uğradı. ATƏT qətnamənin qəbulu ilə məsələnin həlli yolunun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olacağını göstərdi. Qətnamə Qarabağdakı qondarma rejimlə Paşinyan hökuməti arasında onsuz da gərgin olan vəziyyəti daha da gərginləşdirəcək.

"Qarabağ klanı "Nikol Paşinyanı diplomatik uğursuzluqda ittiham edəcək. Bildiyiniz kimi, bir müddət əvvəl Robert Köçəryan Paşinyanı "Qarabağı Azərbaycana qaytarmaqda" ittiham etmişdi. Bu qətnamənin qəbulu həm də Paşinyanı çətin vəziyyətdə qoyacaq".

*Məhəmmədəli QƏRİBLİ*

**Bütün sahələrdə ciddi böhran yaşayan Ermənistan indi də Azərbaycanın bəzi ölkələrlə yaratdığı əməkdaşlıq formatlarını təkrarlamağa cəhd edir. Məlumdur ki, Azərbaycan bütün yaxın qonşuları ilə ikitərəfli və üçtərəfli formatlar çərçivəsində yaxından əməkdaşlıq qurub. Ən maraqlısı isə budur ki, bütün bu əməkdaşlıq formatlarının təşəbbüskarı qismində də Azərbaycanın özü çıxış edir.**

# Ermənistanın regionda Azərbaycanın üçtərəfli əməkdaşlıq formatlarını gülünc yamsılamaq cəhdi - Ermənistan-Gürcüstan-İran...

## *Elşən Mustafayev: "Qərbə doğru meyllənən Gürcüstanın İranla belə əməkdaşlıq formatında təmsil oluna biləcəyi inandırıcı sayılmır"*



Ermənistanın hakim partiyasını təmsil edən "Mənim addımım" fraksiyasının sözcüsü Manukyan jurnalistlərə açıqlamasında bildirib ki, yaxın qonşuları olan ölkələrlə İran-Ermənistan-Gürcüstan formatında uğurlu əməkdaşlıq etməkdə maraqlıdırlar. Belə əməkdaşlıq formatı nə dərəcədə mümkündür? Ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əvvəla, bu təşəbbüsün niyə məhz indiki məqamda ortaya çıxdığına diqqət etməliyik: "Ermənistanın hakim dairələrinə yaxın şəxslərin belə açıqlama ilə çıxış etməsi təsadüfi sayıla bilməz. İrana qarşı təzyiqlərin artdığı bir dönəmdə Ermənistan niyə üzünü Tehrana doğru tutmaq istəyir? Burda söhbət qaz şantajından gedir. Ermənistan hökumətini narahat edən məsələlərdən biri də Rusiyadan alınan təbii qazın qiyməti ilə bağlıdır. Çünki qaz enerjidaşıyıcısı olmaqla yanaşı, ölkədə elektrik enerjisinin, gündəlik tələbat mallarının qiymətinə, demək ki, baş nazirin reytinqinə birbaşa təsir göstərən amildir. O səbəbdən Nikol Paşinyan hakimiyyətə gələr-gəlməz əlindən gələni edir ki, Rusiya satdığı qazı bahalaşdırmasın. Lakin İrəvan hələ də Moskva ilə məqbul qaz anlaşmasına nail ola bilməyib. Bu il yanvarın 1-dən "Qazprom" işğalçı ölkəyə satdığı "mavi yanacaq"a qiyməti hər min kubmetr üçün 150 dollardan 165 dollara qaldırıb. Artıq Ermənistan rəsmiləri bəyan edir ki, Rusiya 2020-ci il yanvarın 1-dən qiyməti 200 dollara qaldıracaq. Görünür, bütün bunları nəzərə alan Ermənistan rəhbərliyi altdan-altdan Rusiya qazına alternativ axtarır. Məhz bu xüsusda İran onlar üçün əlverişli sayıla bilər. Digər qonşu ölkələrin onlara qaz satma ehtimalı yoxdur. Ermənistan bu layihəyə Gürcüstanı da qoşmaq istəməklə özünə yoldaş axtarır. Ancaq Qərbə doğru meyillənən Gürcüstanın İranla belə əməkdaşlıq formatında təmsil oluna biləcəyi inandırıcı sayılmır. Onu da yada salaq ki, İranın energetika sektoruna sanksiya tətbiq edən ABŞ ölkələrə müraciət edərək, Tehrandan neftqaz almamağa çağırıb. Vaşinqton bu çağırışa məhəl qoymayan dövlətləri dəfələrlə sanksiyalarla təhdid edib. Göründüyü kimi, Ermənistan bu təhdidlərə məhəl qoymaq istəmir. Hətta öz ağası Moskvanı da şantaj edir ki, Rusiya qazını ucuz İran qazı ilə əvəzləyə bilər.

Ermənistan fərdi şəkildə İranla qaz sövdələşməsinə gedə bilər. Amma İran da Ermənistana qazı havayı satmaq niyyətində deyil. Razılaşma olsa belə, Ermənistan ABŞ-ın ciddi təzyiqləri ilə üzləşəcək. Gürcüstanın bu formatda təmsil oluna bilmə şansı isə sıfıra bərabərdi. Bunu da Ermənistanın növbəti uydurması saya bilərik".

*Məhəmmədəli QƏRİBLİ*

**Rusiyanın Ermənistana satdığı qazın qiymətini artıracağı ilə bağlı etdiyi xəbərdarlıq işğalçı ölkəni hərəkətə keçirib. Ətraf qonşularının heç birindən qaz almaq ehtimalı olmayan Ermənistan çıxış yolunu İrana üz tutmaqda görüb. İrəvan hələ də Moskva ilə məqbul qaz anlaşmasına nail ola bilməyib.**

# Ermənistanın İranla qaz danışıqlarının pərdəarxası iki hədəfi - ucuz qaz və Rusiyanı qorxutmaq...

***Nəzakət Məmmədova:** ”...və Rusiyanın buna imkan verəcəyi inandırıcı deyil”*



Bu il yanvarın 1-dən "Qazprom" işğalçı ölkəyə satdığı "mavi yanacaq"a qiyməti hər min kubmetr üçün 150 dollardan 165 dollara qaldırıb. Artıq Ermənistan rəsmiləri bəyan edirlər ki, Rusiya 2020-ci il yanvarın 1-dən qiyməti 200 dollara qaldıracaq. Görünür, bütün bunları nəzərə alan Ermənistan rəhbərliyi altdan-altdan Rusiya qazına alternativ axtarır. Məhz bu xüsusda İran onlar üçün əlverişli sayıla bilər. Ermənistanın Baş nazirinin müavini Mqer Qriqoryanın rəhbərlik etdiyi nümayəndə heyətinin yaxın günlərdə İrana rəsmi səfərə yollanacağı gözlənir. Bildirilir ki, orada Rusiya qazına alternativ yollar müzakirə ediləcək. İranın Ermənistana qaz satmaqda problemi yoxdur. Həmsərhəd ölkədirlər, ümumi sərhədləri və qaz xətti mövcuddur. Təbii ki, Ermənistanın bu məsələdə iki məqsədi var. Birincisi, Rusiyanı İran vasitəsilə şantaj edib, əvvəlki qiymət siyasətini bərpa etmək, bu da alınmayacağı təqdirdə İrandan maksimum ucuz qiymətə qaz almaq. İran buna gedəcəyi halda Rusiya ilə ziddiyyətə getmiş olacaq. Rəsmi Tehran Ermənistana görə Rusiya ilə açıq konfrantasiya yolunu tutarmı?

**Politoloq Nəzakət Məmmədova qezetimizə açıqlamasında bildirdi ki, Ermənistan İrandan "elektrik enerjisi əvəzinə qaz" layihəsi əsasında artıq 10 ildir təbii qaz idxal edir:** "Rusiyanın Ermənistana satdığı təbii qazın qiymətini artırması qərarından sonra Paşinyan hökuməti "Qazprom"un Ermənistandakı törəmə şirkəti ilə danışıqlara başlayıb. Lakin Paşinyan Rusiyanın qaz şantajından narahat olduğu üçün, İranla təbii qaz idxalının artırılması barədə danışıqlara başladı və bu ilin fevral ayında onun Tehran səfərinin əsas məqsədlərindən biri də bu idi.

Çünki Paşinyan 2018-ci ilin dekabr ayında Moskvaya səfərindən sonra bildirmişdi ki, Rusiya təbii qazının daha ucuz qiymətə Ermənistana satışı barədə Putinlə razılıq əldə edə bilməyiblər. Bu məsələ ilə bağlı qərar qəbul edilmədi. Qaz faktoru ikitərəfli münasibətlər üçün olduqca həssas məsələdir və İrəvanla Moskva da bunun fərqindədirlər. Paşinyan hakimiyyətə gəldikdən sonra "Qazprom" əlavə saziş haqqında yeni hakimiyyətlə danışıqlara başladı və iki ölkə arasındakı qaz tədarükü haqqında müqaviləyə əlavə saziş imzalandı. Bu sazişə əsasən, Ermənistan üçün qazın qiyməti 2019-cu ilin əvvəlindən 10 faiz artaraq 1000 kubmetri 165 min dollar təşkil edir. "Qazprom"un Ermənistanda "Qazprom Armenia" adlı törəmə şirkəti var. Nikol Paşinyan Davos forumundakı açıqlamasında Rusiya hökuməti ilə deyil, məhz həmin törəmə şirkətlə danışıqlar apardığını deyir. Paşinyan bununla diqqəti Rusiyanın Ermənistana etdiyi təzyiqlərdən yayındırmağa çalışıb. Guya bu problem Rusiya ilə Ermənistan arasında yox, İrəvandakı qaz şirkəti arasındadır. Ermənistanın Baş naziri danışıqların bir neçə ay çəkə biləcəyini demişdi. Bu isə o deməkdir ki, əvvəlki tarif qüvvədə saxlanır, amma danışıqların nəticəsindən asılı olaraq, qiymətin artırılması və azaldılması ehtimalları var. Paşinyan onu da qeyd edib ki, Avrasiya İqtisadi Birliyinə üzv olan ölkələr arasında, o cümlədən, Ermənistanda ümumi qaz və enerji bazarının yaradılması barədə danışıqlar gedir. Artıq belə bir layihə var".

Politoloqun sözlərinə görə, Ermənistan burada iki məsələyə ümid edir: "Qazprom Armenia" vasitəsilə danışıqlarla qiymətləri əvvəlki səviyyədə saxlamağa, eləcə də Avrasiya İqtisadi Birliyi çərçivəsində ümumi qaz bazarının yaradılması və üzv ölkələrə güzəştli qiymətlərin tətbiqinə. Əlbəttə, bu, siyasi qərardır. Paşinyan, əvvəlki kimi, Rusiyaya yaxın adamları həbs edəcəksə, rəsmi Moskvanın Ermənistandakı mövqelərini zəiflətməyə çalışacaqsa, bu zaman Rusiya hökuməti "Qazprom Armenia" şirkətinə göstəriş verəcək və qiyməti artıracaqlar. Onu da qeyd edək ki, Gürcüstan ərazisi istifadə olunmaqla Ermənistanın qaz təminatı ödənilir. Bunun üçün Gürcüstan Rusiyadan 10 faiz tranzit haqqı alır. Əvvəllər rəsmi Tiflis tranzit haqqının dəyəri qədər qaz həcmi alırdı, amma sonradan bunu pulla əvəzləməyə başladı.

*”Ermənistan növbəti dəfə ABŞ-AB-Rusiya üçbucağının məngənəsində sıxışıb qala bilər”*

Məlumatlar vardı ki, Gürcüstan Ermənistana qaz verilişində tranzit ölkə olmaqdan imtina edəcək. Amma Gürcüstanın energetika naziri bunu təkzib etdi. Rusiyanın təzyiq imkanları çox genişdir. Qazın qiymətini artırmaqla yanaşı, rəsmi Moskva Tiflisə tranzit ölkə kimi istifadə olunmasına icazə verməyə və yaxud da tranzit haqqını artırmasını təkid edə bilər.

Bu, Ermənistana bir zərbə olar. Nəzərə alsaq ki, Rusiyaya yaxın qüvvələr Gürcüstan hökumətində təmsil olunur, onda hər şey aydın olar. İran qazının Ermənistana satışı məsələsi ola bilsin ki, Donald Tuskun İrəvana səfəri zamanı razılaşdırılıb. Avropa Birliyi bununla həm İrana yeni satış bazarı qazandırır, ona şimaldan nəfəslik açır, eyni zamanda, Ermənistanı Rusiyanın enerji asılılığından qoruyur. Lakin İrana sanksiya tətbiq edən ABŞ və Rusiyanın buna imkan verəcəyi inandırıcı deyil. Odur ki, Ermənistan növbəti dəfə ABŞ-AB-Rusiya üçbucağının məngənəsində sıxışıb qala bilər".

***Məhəmmədəli QƏRİBLİ***

**ABŞ Prezidenti Administrasiyası Rusiyadan S-400 zenit raket kompleksləri aldığı üçün Türkiyəyə qarşı sanksiya paketi hazırlayıb. Bu barədə məlumatı dünyanın nüfuzlu KİV-i yayıb. Qeyd olunub ki, sanksiyanın tətbiqi yaxın günlərdə rəsmən elan olunacaq.**

# ABŞ Türkiyəyə hansı sanksiyaları tətbiq edə bilər və mümkün nəticələr...

***Hatəm Cabbarlı:** ”Türkiyəyə ilk sanksiyaların hərbi sənaye kompleksini əhatə edəcəyi gözləniləndir”*



Yayılan məlumata görə, üç müxtəlif sanksiya paketi arasında ən məqsədəuyğunu seçilib. Sanksiyaların nədən ibarət olacağı və hansı sahələri toxunacağı məlum deyil.

Bildirilir ki, gələn həftənin sonunda Vaşinqton sanksiyanın tətbiqi barədə açıqlama verəcək.

ABŞ-ın əzəli müttəfiqi olan Türkiyəyə sanksiya tətbiq edəcəyi nə dərəcədə realdır və tətbiq olunacaq sanksiya hansı sahələri əhatə edə bilər?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyə ilə ABŞ-ın münasibətlərini gərginləşdirən bir çox detal var:** "Bunlardan başlıcası ABŞ istehsalı olan F-35 təyyarələri ilə bağlıdır. Türkiyə xeyli miqdarda xərc çəksə də, sonra ABŞ həmin təyyarələrin Ankaraya satışına qadağa qoyduğu. Suriya böhranının dərinləşdiyi dönəmdə Türkiyənin "Patriot" raketlərini almaq təşəbbüsü də alınmadı. Onda da ABŞ bənzər qadağanı tətbiq etdi. Eyni zamanda, biz Yaxın Şərqdə, xüsusilə də Suriyada Türkiyənin həyata keçirdiyi antiterror əməliyyatlarının ABŞ tərəfindən dəstəklənmədiyinin şahidi olduq. Hətta ABŞ-ın PKK-nı silahla təchiz etdiyi və Türkiyənin milli maraqlarına zidd olan digər addımları üzə çıxdı. Gərginliyin kulminasiya nöqtəsi isə Türkiyənin Rusiyadan S-400 tipli raketlər almasından sonraya təsadüf etdi. Son addım Türkiyənin maraqları üçün xüsusi əhəmiyyət kəsb edir. Türkiyə NATO-da təmsil olunsa da, hazırda alyansa üzv olan ölkələr xüsusilə də ABŞ-la ciddi problemlər yaşayır.

*”Sanksiyalara məruzqalma ehtimalı olan sahələrdən biri də bank sistemidir”*

Buna görə də müdafiə qüdrətini öz gücünə təmin etməyə çalışır. S-400-lərin məsələsi tam reallaşandan sonra ABŞ Türkiyəni açıq mətnlə sanksiyalarla hədələdi. Bu sanksiyalar nədən ibarət ola bilər? ABŞ Türkiyənin F-35 təyyarələri ilə bağlı layihədə iştirakını dondura bilər. Bu baxımdan da Türkiyəyə ilk sanksiyaların hərbi sənaye kompleksini əhatə edəcəyi gözləniləndir. Növbəti mərhələdə Türkiyəyə silah tədarükü ilə bağlı maneçilik törədiləcək. Hesab edirəm ki, sanksiyalara məruzqalma ehtimalı olan sahələrdən biri də bank sistemidir. Çünki hərbi sənayə proqramlarının icrası maliyyə məsələləri ilə birbaşa bağlıdır. Maliyyə sanksiyasının təbiqi ölkələrin ən yaralı yeri sayılır. Belə sanksiyaların tətbiqi baş tutarsa, bu, Türkiyə tərəfindən birmənalı qarşılanmayacaq və iki ölkə arasındakı ziddiyyətin daha da dərinləşməsinə səbəb olacaq. Ancaq güman etmirəm ki, tətbiq olunması nəzərdə tutulan sanksiyalar İran və Rusiyaya olduğu kimi sərt olsun və daha çox sahəni əhatə etsin. Ancaq Türkiyənin davranışlarından görünür ki, geri addım atmaq fikri yoxdur. Burdan da bu nəticəyə gəlirik ki, sanksiyaların tətbiqi qaçılmaz olacaq. Yəqin ki, növbəti həftədən başlayaraq Türkiyə-ABŞ gərginliyi ilk fazasına qədəm qoymuş olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Qardaş Türkiyənin Rusiyadan S-400 zenit-raket komplekslərini almağa başlaması Cənubi Qafqaza da təsirsiz ötüşməyərək, artıq burada yeni geosiyasi reallıq yaradır. Belə görünür ki, qarşıdakı dövr ərzində yeni geosiyasi reallığa uyğun olaraq Türkiyənin Rusiya vasitəsilə bu regionda mövqeləri əhəmiyyətli dərəcədə güclənəcək.**

# Türkiyə - Rusiya S-400-lər anlaşması Cənubi Qafqazda Azərbaycanın da mövqeyini gücləndirir...




Belə vəziyyət, öz növbəsində, Azərbaycanın maraqlarına cavab verir.

Ümumiyyətlə, qarşıdakı dövr ərzində regionda Azərbaycan-Türkiyə-Rusiya üçbucağında münasibətlərin əhəmiyyətli dərəcədə güclənməsi, bu dövlətlərin regionun əsas güc mərkəzi olması gözlənir. Hazırda Qərb tərəfindən sıxışdırılan Türkiyə indi Rusiya ilə bütün istiqamətlərdə daha sıx münasibətlər qurur. Bu münasibətlərin əhatə etdiyi əsas zonalardan biri də məhz Qafqazdır. PROSESLƏR göstərir ki, indi Rusiya-Türkiyə münasibətləri tam yeni mərhələyə qədəm qoyur. Belə vəziyyətdə alınan S-400 sistemi Türkiyənin təhlükəsizliyini və siyasi çəkisini artırır. Bundan başqa, Türkiyə Rusiyadan əldə etdiyi texnologiya əsasında özü eyni sistemlərin istehsalına başlamağı düşünür. Hadisələrin bu səpkidə inkişafı artıq ABŞ-da ciddi narazılıq yaradıb. "Euronews" telekanalı bildirir ki, Birləşmiş Ştatlar Rusiyadan S-400 zenit-raket kompleksləri aldığı üçün rəsmi Ankaraya qarşı sanksiyalar paketi hazırlayıb. ABŞ-ın Türkiyəyə qarşı sanksiyalar paketinin iyulun 16-dan sonra elan olunacağı gözlənilir. Birləşmiş Ştatlar Türkiyədə 15 iyul - dövlət çevrilişinə cəhdin qarşısının alınmasının 3-cü ildönümü ilə əlaqədar Ankaraya qarşı sanksiyaların tətbiqini bir qədər ertələyib. Belə ki, rəsmi Vaşinqton sanksiyaların bu hadisə ilə assosiasiya olunmasından ehtiyatlanır.

Xatırladaq ki, ötən ay "Bloomberg" nəşri hadisədən məlumatlı mənbələrə istinadən xəbər yayıb ki, ABŞ prezidenti Donald Trampın Administrasiyası Türkiyənin S-400 komplekslərini alması ilə bağlı rəsmi Ankaraya qarşı artıq iyulda üç yeni sanksiya paketini tətbiq etmək imkanını nəzərdən keçirir. Agentliyin məlumatına görə, hazırda ABŞ Milli Təhlükəsizlik Şurası, Dövlət Departamenti və ABŞ Maliyyə Nazirliyinin rəsmiləri arasında müzakirə olunan ən ciddi sanksiyalar paketi Türkiyə iqtisadiyyatını tamamilə silkələməyə hesablanıb. Bundan əlavə, ABŞ rəhbərliyi hazırda Türkiyənin müdafiə sektorunda olan bir neçə şirkətə qarşı sanksiyalar tətbiq etməyi də nəzərdən keçirir. Bu cür cəzalar şirkətləri ABŞ maliyyə sistemindən ayıracaq ki, bu da sanksiya tətbiq ediləcək Türkiyə şirkətlərinin ABŞ istehsalı olan məhsulları almasını və ya öz məhsullarının ABŞ ərazisində satılmasını mümkünsüz edəcək.

Amma Ankara, sanksiyalara rəğmən, geri çəkilməyi düşünmür. Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan Türkiyənin bu raketləri almasının səbəbini ölkəsinin təhlükəsizliyi ilə əlaqələndirib: "Rusiyadan 2020-ci ilə qədər bu raketlərin tədarükü davam edəcək. Bu raketlər ölkəmizin təhlükəsizliyi üçün çox vacibdir. Biz ölkəmzin təhlükəsizliyini təminat altına almaq istəyirik. Bu tarixi anlaşmadır. Biz Rusiya ilə S-500-lərin ortaq istehsalı üçün addım atmağa hazırlaşırıq. Biz dürüst tacirik. Gərəkən addımı vaxtında ABŞ atmalı idi, alternativ variant irəli sürməli idi". Ərdoğan F-35-lərlə bağlı yaranacaq problemə də toxunub.

Bildirib ki, ABŞ-ın hazırkı addımları strateji ortaqlığa və dostluğa yaraşan deyil: "İndi bizi sanksiya ilə hədələyirlər. Digər yandan da, Avropa İttifaqı Aralıq dənizindəki fəaliyyətimizlə bağlı bəyanat yayır, bizi sanksiya ilə hədələyir. Bunların çoxu blefdir, qulaq asmamaq lazımdır".

Hazırda ABŞ-da daha çox Konqres və Pentaqon Türkiyəni S-400 raketlərinə görə cəzalandırmağa çalışır. Hətta ABŞ-da senatorların bir qrupu prezident Donald Trampı Türkiyəyə qarşı sanksiyalar tətbiq etməyə çağırıb: "Biz prezident Trampı "ABŞ-a tərəfdaş olmayanlara qarşı sanksiyalar haqqında" qanuna əsasən sanksiya tətbiq etməyə çağırırıq. Bundan əlavə, F-35-lərlə bağlı proqramı qeyri-müəyyən vaxta qədər dayandıran Türkiyənin ümumiyyətlə bu proqramdan çıxarılmasını tələb edirik". Sözügedən sənədə Respublikaçıların silahlı güc komitəsinin rəhbəri Cim İnxof, Demokratlar komitəsinin rəhbəri Cek Rid, Respublikaçılar və Demokratların beynəlxalq əlaqələr komitəsinin rəhbərləri Cim Riş və Bon Menendes imza atıb.

Lakin bunlara rəğmən, Ankara da geri çəkilmir. Politoloqlar bildirir ki, Türkiyənin müdafiə qabiliyyətini artırması, heç şübhəsiz, müttəfiqi Azərbaycanın da maraqlarına xidmət edir. Çünki Türkiyə S-400 raketlərini gələcəkdə özü istehsal etməyə başlayacağı halda əldə edəcəyi məhsulu Azərbaycanla da bölüşəcək. Bu, Azərbaycanın təhlükəsizlik imkanlarını artıracaq. Digər tərəfdən, artan Rusiya - Türkiyə hərbi əməkdaşlığının Cənubi Qafqazdakı proseslərə də müsbət təsirini proqnozlaşdırmaq olar. Rusiya, istər-istəməz, Türkiyənin Cənubi Qafqazdakı maraqlarını nəzərə almağa başlayacaq. Məhz belə vəziyyət Azərbaycanın regionda maraqlarına tam cavab verir.

Eləcə də ABŞ tərəfindən sıxışdırılan Türkiyə Rusiya ilə iqtisadi və digər müstəvilərdə də yaxınlaşacaq. Bu amil də Azərbaycanın lehinə işləyən məqamlardan sayılır. Çünki Türkiyə-Rusiya iqtisadi əməkdaşlığının daha da dərinləşməsinə töhfə verəcək və bu prosesdə yaxından iştirak edəcək ölkələrdən biri də məhz Azərbaycan hesab olunur. Bu fonda xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının təşəbbüskarı kimi geosiyasi dinamikada xüsusi yer tutan dövlətdir.

Həmin kontekstdə Azərbaycan-Türkiyə-Rusiya, Azərbaycan-İran-Rusiya və digər əməkdaşlıq formatlarını xatırlamaq kifayətdir. Digər tərəfdən, qlobal və regional miqyasda baş verən geosiyasi proseslər bir daha təsdiq edir ki, Avrasiyanın geosiyasi taleyi ilk növbədə Rusiya və müstəqil türk dövlətləri arasında olan münasibətlərdən xeyli dərəcədə asılıdır. Bunu Rusiyada indi açıq etiraf edirlər.

Bütün bunlar Azərbaycan-Türkiyə-Rusiya geosiyasi üçbucağının artıq bir zərurət olaraq meydana gəldiyini və tərəflərin hamısı üçün sərfəli olduğunu bir daha sübut edir.

***Tahir TAĞIYEV***

**Ermənistanda fəaliyyət göstərən "Doğru yol" adlı təşkilat Venesiya Komissiyasının 119-cu plenar iclasının qəbul etdiyi qərarın surətini mediaya təqdim edib. Cari ilin 21-22 iyununda keçirilən həmin iclasın yekun qərarında Ermənistanla bağlı mühüm müddəaların olduğu üzə çıxıb.**

# Venesiya Komissiyası Paşinyanın konstitusiya-hüquq islahatlarını alt-üst etdi...




## *Mehman Muradlı: "Komissiya Paşinyan hakimiyyətinin məhkəmələrin işinə kobud müdaxilə cəhdlərinin qarşısını almağa asanlıqla müvəffəq olmayacaq"*

Yayılan sənəddən görünür ki, Venesiya Komissiyası Ermənistan rəhbərliyinin hazırda fəaliyyətdə olan məhkəmələrlə bağlı qəbul etdiyi məcburi "vettinq" (yoxlama, attestasiya - red.) siyasətini məqbul saymayıb. Bildirilir ki, komissiya üzvləri hakimlərlə bağlı tətbiq edilən "vettinq" siyasəti əvəzinə, həmin sistemdəki nizam-intizamın möhkəmləndirilməsini zəruri sayıblar. Venesiya Komissiyası, həmçinin, "hakim" və "Konstitusiya Məhkəməsinin üzvü" kimi sözlər arasında qoyulan fərqləri də məqbul saymayıb. Həmçinin, Konstitusiya Məhkəməsinin tərkibinin formalaşması prosesini də qənaətbəxş hesab etməyib. Eyni zamanda, hakimiyyət nümayəndələrinin Konstitusiya Məhkəməsinin hakimlərinin işinə etdikləri kobud müdaxilə faktları da kəskin tənqid edilib. Sənədin yekun hissəsində qeyd edilir ki, Ermənistanda baş verən inqilabdan sonra formalaşan və özünü demokratik hesab edən hakimiyyət hələ ki, bu istiqamətdə heç bir addım atmayıb. Sənəddə, həmçinin, Ermənistanda Konstitusiya Məhkəməsinə seçilən 9 hakimdən 7-sinin legitimliyinin olmadığı ilə bağlı da narahatlıq öz əksini tapıb. Venesiya Komissiyası Ermənistan parlamentinin Vaqe Qriqoryanın təsdiqedici tanınmış ifadələrini də narahatlıq adlandırıb. Göründüyü kimi, komissiya Paşinyanın "islahat" adı qoyduğu bütün prosesi ifşa edib. Venesiya Komissiyasının Ermənistanla bağlı qəbul etdiyi son qərarı necə dəyərləndirmək olar?

**Hüquqşünas Mehman Muradlı qəzetimizə bildirdi ki, Paşinyan hakimiyyəti özünü nə qədər demokratik adlandırmağa çalışsa da, bu yöndə heç bir əməli addım atmayıb:** "Venesiya Komissiyasının seçki islahatları ilə bağlı bütün təkliflərini qulaqardına vurdu. Çox biabırçı şəkildə Seçki Məcəlləsini hazırladı. Venesiya Komissiyasının bəslədiyi məhz passiv münasibətin nəticəsidir ki, Paşinyan həmin saymazlığını məhkəmə "islahatları" adı ilə davam etdirdi. Köçəryanın həbsdən azadlığa buraxılması Paşinyanı vadar etdi ki, məhkəmə sistemində də repressiyalara start versin. Çıxış yolunu hakimlərin attestasiyasında gördülər. Guya tələblərə cavab verməyən hakimlərin səlahiyyətinə vaxtından əvvəl xitam verildi. Onların yerinə isə hakimiyyət özlərinə qulaq asanları gətirdi. Venesiya Komissiyasının sözügedən qərarında vurğulanır ki, ən ali instansiya məhkəməsinin yalnız iki hakimi legitimdir, qalanları qanunsuz yollarla ora gətirilib. Görürsünüz ki, Ermənistan hakimiyyəti bu məlumatı gizlədib. Yalnız bir neçə gündən sonra orada fəaliyyət göstərən bir təşkilat tapıb bunu ictimailəşdirib. Venesiya Komissiyasının məhkəmə sistemi ilə bağlı Ermənistan hakimiyyəti qarşısına qoyduğu tələblər çox sərtdir. Ermənistan hakimiyəti tövsiyələrə əməl etməyəcəyi təqdirdə münasibətlərdə ciddi gərginlik yaşanacaq. Biz bu məsələni, öz növbəmizdə, maraqla izləməli, gərəkən addımları vaxtında atmalıyıq. Ermənistanın hüquq "islahatları" adı ilə həyata keçirdiyi qanunsuzluqlar tam ifşa edilib. Hesab edirəm ki, komissiya Paşinyan hakimiyyətinin məhkəmələrin işinə kobud müdaxilə cəhdlərinin qarşısını almağa asanlıqla müvəffəq olmayacaq. Bunun üçün, mütləq mənada, təsir vasitələri işə salınmalıdır. Avropa Şurasının əlində isə belə təsir vasitələri kifayət qədərdir".

> *"Bunun üçün, mütləq mənada, təsir vasitələri işə salınmalıdır"*

***Məhəmmədəli QƏRİBLİ***

---

**Ermənistan parlamentinin spikeri Ararat Mirzoyanın rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ-a səfəri başlayıb. Məlumata görə, nümayəndə heyətinin tərkibinə "Mənim addımım" blokunun rəhbəri Lilit Makunts, "İşıqlı Ermənistan" fraksiyasının rəhbəri Edmon Marukyan, "Çiçəklənən Ermənistan" fraksiyasının katibi Arman Abovyan və parlamentin hüquqi məsələlər üzrə komissiyasının sədr müavini Anna Karapetyan daxildirlər.**

# Paşinyançı elitanın ABŞ-da rəsmi rəyi dəyişməyə yönəlik növbəti uğursuz səfəri...



## *Arzuxan Əlizadə: "Ermənistan parlament spikerinin rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ səfəri nəyisə dəyişə bilməyəcək"*

Erməni nümayəndə heyətinin səfəri iyulun 14-də başlayıb. 12 gün davam edəcək səfər zamanı ermənilər təkcə Vaşinqtonda görüşlər keçirməyəcəklər. Onlar Boston və Nyu-Yorka da gedəcəklər. Paşinyanın bu səfərdən gözləntisi böyük olsa da, əslində, Ermənistan parlament sədrinin səfəri nəyisə dəyişməyəcək.

Hətta erməni mətbuatının belə, sözügedən səfərdən elə bir gözləntisi yoxdur. Məsələn, Ermənistanın "Jamanak" qəzeti yazıb ki, parlamentin spikeri Ararat Mirzoyanın ABŞ səfərinin Ermənistan üçün əhəmiyyəti yoxdur. Qəzet bunu belə əsaslandırıb: "Səfər çərçivəsində Respublikaçıların Konqresdəki lideri Miç Makkonel və Nümayəndələr Palatasının spikeri Nensi Pelosi ilə Mirzoyanın görüşü gözlənir. Mirzoyan bunun vacib səfər olduğunu, səfərdən sonra isə onun faydalı və məhsuldar olduğunu deyə bilər, amma əvvəlcədən bəllidir ki, bu kimi səfərlər daha çox turistik xarakter daşıyır və Ermənistan üçün, praktik olaraq, heç bir əhəmiyyəti yoxdur".

Maraqlıdır, bəs siyasi ekspertlər Mirzoyanın ABŞ səfərini necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Ermənistan parlament sədrinin ABŞ səfəri nəyisə dəyişməyəcək:** "Nəzərə almaq lazımdır ki, Ermənistanda inqilab eyforiyası başa çatıb. Ötən bir ildə ABŞ gördü ki, Paşinyan verdiyi vədlərə əməl edə biləcək qüdrətdə deyil. Qərbin xeyir-duası ilə hakimiyyətə gələn Paşinyan Avropanın, ən azından, Ermənistana üzləşdiyi ağır sosial-iqtisadi durumdan çıxmasına ciddi yardım edəcəyinə ümid edirdi. O, eyni zamanda, Amerikadakı və digər Qərb ölkələrindəki erməni lobbisinə böyük ümidlər bəsləyirdi. Bütün bunlarla yanaşı, Rusiyanın Ermənistana olan böyük təsir imkanlarını bildiyindən, Moskva ilə də oynayaraq mümkün təsirlərindən yayınmağa çalışırdı. Həm Qərb, həm Moskva, həm də erməni lobbisi Paşinyanın bu siyasətinin nə ilə nəticələnəcəyini bildiyinə görə onunla məsafəli davranırlar. Birləşmiş Ştatlar gördü ki, Paşinyan verdiyi vədlərə əməl etmədi. Ona görə də nə ABŞ, nə də Qərbdəki erməni lobbisi ona istədiyi dəstəyi vermədi. Bu baxımdan Ararat Mirzoyan ABŞ-a səfər etməklə mövcud reallığı dəyişə bilməyəcək. İnanmıram ki, Ermənistan parlament spikeri ABŞ rəsmiləri ilə yüksək səviyyəli görüşlər keçirə bilsin. O əsasən erməni lobbisinin təsiri altında olan konqresmenlərlə görüşlər keçirəcək. Nəzərə almaq lazımdır ki, indiyə qədər Ermənistanın bir sıra rəsmi şəxsləri ABŞ-da səfərdə olsalar da, eyni səviyyəli həmkarları ilə görüşlərə nail ola bilməyiblər. Bir müddət əvvəl Ermənistan müdafiə naziri ABŞ-da səfərdə oldu, amma o, Pentaqonda görüşlər keçirə bilmədi.

Bir neçə dəfə erməni lobbisi Tramp-Paşinyan yüksək səviyyəli görüşünün keçirilməsinə cəhd etsə də, buna nail ola bilməyiblər. ABŞ Paşinyana yüksək etimad göstərsəydi, o zaman bütün bunlar yaşanmazdı. Ona görə də Ermənistan parlament spikerinin rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ səfəri nəyisə dəyişə bilməyəcək".

> *"Birləşmiş Ştatlar gördü ki, Paşinyan verdiyi vədlərə əməl etmədi"*

***Vidadi ORDAHALLI***

**Xarici siyasətdə çoxsaylı uğursuzluqlara yol verən işğalçı Ermənistanı bu istiqamətdə yeni ciddi problemlər gözləməkdədir. Belə görünür ki, qarşıdakı dövr ərzində Ermənistana qarşı Qərb və Rusiyanın təzyiqləri daha da artacaq. Çünki hazırda İrəvan nə Qərbə, nə də Rusiyaya doğru meyl edir və bu da hər iki tərəfi, belə demək olarsa, hövsələdən çıxarır.**

# Ermənistan spikerinin bədbin ABŞ səfəri və Putinin adından Lavrovun Paşinyana xəbərdarlıq mesajları...

## *İrəvanda jurnalistlərin Donald Tuska sual verməsinin qarşısı alındı...*



Qərb hesab edir ki, baş nazir Nikol Paşinyana inqilab zamanı göstərdiyi dəstəyə görə İrəvan adekvat addımlar atmır və onunla məsafə saxlayır. Bu da Qərbdə satqınlıq kimi dyərləndirilir. Rusiya da Paşinyanın onun sözünə baxmamasından narazıdır və buna görə İrəvana təzyiqləri artırır.

Ermənistanın belə vurnuxması fonunda Nikol Paşinyanın "Qarabağ klanı"nı hüquqi müstəvidə sıradan çıxarmaq niyyəti isə həm Qərb, həm də Rusiyaya Paşinyana qarşı əlavə təzyiq rıçaqlarını işə salmağa imkan yaradır. Xatırladaq ki, "Qarabağ klanı"nın əsas liderlərindən olan keçmiş prezident Robert Köçəryan həbsdədir. Digər keçmiş prezident Serj Sarksiyanın da həbsinə hazırlıq gedir. Bundan əlavə, sabiq müdafiə naziri Seyran Ohanyan, baş nazirin sabiq müavini Armen Gevorkyan, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) keçmiş baş katibi Yuri Xaçaturov və "Qarabağ klanı"na yaxın sayılan bir sıra digər şəxsləri də eyni aqibət gözləyir. Erməni mediası yazır ki, Avropa İttifaqı Şurasının rəhbəri Donald Tusk İrəvana səfəri zamanı bu barədə narahatlığını Paşinyanın diqqətinə çatdırıb. "168 jam" qəzeti qeyd edir ki, məhz bu səbəbdən Tuskun təşkil olunan mətbuat konfransında ona jurnalistlərin sual verməsi qadağan edilib: "Hökumət heç bir izahat vermədən yalnız KİV-ə bəyanat yaymaqla kifayətləndi. Bununla əlaqədar olaraq sonradan mətbuat informasiyaya yayaraq, hökumətin belə davranışına əsas səbəb kimi onların əlində KİV-in insident yarada biləcək bir sıra suallar verəcəyi məlumatının olmasını göstərib. Özəlliklə bu suallar Ermənistandakı son hadisələr, siyasi təqiblər, mətbuat və söz azadlığı, Robert Köçəryanın həbsi, məhkəmələrin bloklanması ilə bağlı olduğu üçün hökumət bundan qaçmağa çalışıb. Tusk isə Ermənistanda baş verən hadisələr, xüsusən də həbslərlə bağlı narahatlığını hökumət rəsmilərinin diqqətinə çatdırıb". Məqalədə, həmçinin, Tuskun son səfəri zamanı Ermənistan üçün vacib olan ənənənin pozulduğu qeyd edilərək, Avropa İttifaqı Şurasının rəhbərinin "erməni soyqırımı" abidəsini ziyarət etmədiyi vurğulanıb.

Bu arada yayılan digər məlumata görə, Ermənistan parlamentinin spikeri Ararat Mirzoyanın rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ-a səfəri fonunda da Robert Köçəryanın həbsi ilə bağlı hakimiyyətə müəyyən xəbərdarlıqlar olunub. "Jamanak" qəzeti yazıb ki, parlamentin spikeri Ararat Mirzoyanın ABŞ səfərinin Ermənistan üçün əhəmiyyəti yoxdur: "Səfər çərçivəsində Respublikaçıların Konqresdəki lideri Miç Makkonel və Nümayəndələr Palatasının spikeri Nensi Pelosi ilə Mirzoyanın görüşü gözlənilir. Mirzoyan bunun vacib səfər olduğunu, səfərdən sonra isə onun faydalı və məhsuldar olduğunu deyə bilər, amma əvvəlcədən bəllidir ki, bu kimi səfərlər daha çox turistik xarakter daşıyır və Ermənistan üçün praktik olaraq heç bir əhəmiyyəti yoxdur. Digər tərəfdən, ABŞ Ermənistanda son həbslərdən narazıdır və bunu insan haqlarının porzulması kimi dəyərləndirir".

Amma erməni mediası yazır ki, həbslərə görə ən sərt reaksiyanı Rusiya göstərir. "İrates" qəzeti yazır ki, bu fonda Rusiyanın xarici işlər naziri Sergey Lavrovla Ermənistan Xarici İşlər Nazirliyinin başçısı Zöhrab Mnatsakanyanın ATƏT-in xarici işlər nazirləri başçılarının Slovakiyada qeyri-formal iclası çərçivəsində baş tutan görüşü o qədər də rahat keçməyib: "Nikol Paşinyandan onsuz da xoşu gəlməyən Sergey Lavrov (rəsmi görüşlər zamanı Lavrov heç vaxt Paşinyan tərəfə baxmır) bu dəfə erməni nümayəndə heyətinin (Ruben Rubinyan) AŞPA-dakı hərəkətindən, həmçinin BMT Baş Assambleyasının 73-cü sessiyasında erməni nümayəndələrinin Gürcüstan tərəfindən Rusiyaya qarşı təqdim edilən sənədin səsvermə prosesində iştirak etməmək barədə qərar verməsindən təəccübləndiyini bildirib.

Görüşdə Vladimir Putinin oktyabrın 2-də Ermənistana edəcəyi səfərə də toxunulub və ehyam vurulub ki, Putinin İrəvan səfərinə qədər Robert Köçəryan həbsdə olmamalıdır". Rusiyalı politoloq Stanislav Tarasov da proseslərin Ermənistan üçün ciddi fəsad yaradacağını bildirib. Onun sözlərinə görə, Robert Köçəryanın həbsi Ermənistan-Rusiya münasibətlərinə neqativ təsir göstərir: "Paşinyanın siyasəti problematikdir. Gələcəyə baxmaq yerinə, nədənsə, inqilabi hökumət daim geriyə baxır. Köçəryanı həbsə salmaqla Ermənistanın vəziyyəti yaxşılaşmayacaq. Vəziyyəti nəzərə almaq lazımdır. Bəlkə gələcəkdə digər hakimiyyətlər də Paşinyana oxşar ittihamlar səsləndirəcəklər? Bu çox pis presedentdir. Moskva baş verənlərdən çox narazıdır".

Ekspertlər hesab edir ki, Rusiyanın və qismən də Qərbin təzyiqiilə Köçəryan azadlığa çıxdıqdan sonra Paşinyanla mübarizəyə qaldığı yerdən davam edəcək. Çünki artıq bu sadəcə hakimiyyət savaşı deyil. Köçəryan illərdir öz adamlarının əli ilə Qarabağdakı separatçı rejimi və Ermənistanı idarə edirdi. O, inqilabdan sonra idarəetməni itirdi.

Bu hal Rusiyanın da maraqları ilə ziddiyyət təşkil edir. Çünki Moskva belə vəziyyətdə Ermənistan üzərində nəzarəti itirir. Bu durumda azadlığa çıxdıqdan sonra gözlənir ki, ilk mərhələdə Köçəryan yenidən müxtəlif siyasətçilərə külli miqdarda pullar yedirtməklə "boz kardinal" statusunu qoruyacaq və öz adamlarını Paşinyanın qarşısına siyasi alternativ kimi çıxaracaq. Eyni zamanda, yenidən aktiv siyasətə qayıdan Köçəryan bir müddət sonra Paşinyanı devirib yenidən hakimiyyət başına qayıtmağa cəhd edəcək.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ münaqişəsinin davamının erməni cəmiyyəti üçün daha bir böyük fəsadı meydana çıxdı

**Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması ötən dövr ərzində Ermənistana siyasi, sosial-iqtisadi, hərbi müstəvidə kifayət qədər böyük zərər vurub. Məhz bu münaqişənin çözümünün ləngiməsi Ermənistanı regionda bütün transmilli layihələrdən kənarda qoyub, onu bölgədə ən zəif, kasıb ölkəyə çevirib. Hazırda İrəvan üçün münaqişənin yaratdığı əsas problemlərdən biri də erməni cəmiyyətində yaranan parçalanmadır.**

Ermənistan parlamentinin sabiq deputatı Ruben Hakobyan bildirir ki, Qarabağ konflikti bir neçə istiqamətdə erməni cəmiyyətində parçalanmaya yol açıb. Belə ki, erməni cəmiyyətində münaqişənin istənilən halda həllini istəyənlər var: "Eyni zamanda müəyyən şərtlər əsasında konfliktin həllinə tərəfdar olanlar da mövcuddur. Amma ən təhlükəlisi artıq hərbçilər arasında da Qarabağ məsələsində parçalanmaların olmasıdır. Generalitetin bu məsələdə düşərgələrə bölünməsi prosesinin qarşısı alınmasa, Ermənistanda bir sıra ciddi problemlər baş verəcək. Qarşıdakı günlərdə ciddi hadisələr gözlənilir. Qarabağdakı rejim heç zaman bu gün olduğu qədər yorğun olmayıb. Təhlükəli olan hakimiyyət tərəfindən ləkələnmiş, qüsurlu hesab edilən generalitetin üzvlərinin müxtəlif cəbhələrdə peyda olmasıdır. Bu isə təhlükəli məqamlarla doludur. Qeyd etdiyimiz kimi, generalitetin düşərgələrə bölünməsi prosesinin qarşısı alınmasa, təhlükəli hadisələr baş verə bilər. Hakimiyyət razılıq mühiti yaradılmasına cəhd etmir. Əksinə, qarşıdurmanın daha da artmasına xidmət edir. Bu hal Qarabağ məsələsində hərbi müstəvidə də Ermənistanın mövqelərini xeyli zəifləDir". Hakopyan bunu vəziyyətdən müəyyən qədər məlumatı olan şəxs kimi dediyini qeyd edib.

"Jamanak" nəşri isə qeyd edir ki, hazırda Ermənistanın baş naziri Nikol Paşinyanı maraqlandıran əsas məsələ Qarabağ yox, hərbçilər arasında öz mövqeyini gücləndirməkdir. Qəzet yazır ki, məhz bu səbəbdən 2016-cı ildə Azərbaycan ordusunun qələbəsi ilə yekunlaşan aprel döyüşlərindən sonra o zamankı Ermənistan prezidenti Serj Sarkisyan tərəfindən istefaya göndərilən generalları Paşinyan geri çağırır. Xatırladaq ki, ilk olaraq, Paşinyan Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat idarəsinin sabiq rəisi, general-mayor Arşak Karapetyanı özünə müşavir təyin edib. Aprel döyüşləri zamanı Ermənistan Silahlı Qüvvələrinin rabitə və avtomatlaşdırılmış idarəetmə sisteminin rəhbəri, general-mayor Komitas Muradyan yenidən ordu sıralarına qaytarılıb. Aprel döyüşlərində vəzifəsindən azad edilən digər general, o dövrdə texniki təminat bölməsinin rəhbəri olan Alik Mirzabekyan da yenidən vəzifəyə qaytarılanlar sırasındadır. "Jamanak" nəşri qeyd edir ki, bu şəxslər geri qaytarmaqla Paşinyan hərbçilər arasında dayaqlarını möhkəmləndirməyə çalışır. Amma digər hərbçilərin buna qarşı çıxması generaliteti parçalayır.

Rus ekspert Aleksandr Proxanov da qeyd edir ki, erməni cəmiyyətində həm hərbçilər, həm də digər təbəqədə Qarabağ məsələsinə görə ciddi parçalanma hökm sürür: "Biz erməni cəmiyyətində parçalanmanın dərinləşməsini açıq müşahidə edirik. Qarabağ məsələsi, Rusiyaya münasibət və digər istiqamətlərdə bunu görürük. Mənə elə gəlir ki, erməni cəmiyyəti konsolidasiya olunmayıb, yalnız qismən idarə olunandır, dövlət başçısının aşkar və ya aşkar olmayan göstərişlərini yalnız qismən yerinə yetirir. Müxtəlif variantlar məhz buradan yaranır. Həmin variantlar ictimai düşüncənin disbalansının nəticəsidir. Faciə məhz bundan ibarətdir.

Yeni baş verənlər elə bu disbalansın nəticəsidir. Ermənistan cəmiyyəti parçalanıb, orada yaşadıqları inqilab, hakimiyyət dəyişikliyindən başqa, müxtəlif partlayışlar mümkündür. Bu, iri miqdarda enerjinin üzə çıxması kimi bir şeydir. Məndə belə bir hiss var ki, Ermənistan bir çox mənada bərbad vəziyyətə düşüb. O, inqilabın nəticələrindən arzu etdiyini ala bilməyib. Qarabağda hələ də müharibə gedir, əhali ölkəni tərk edir. Ermənistan çəngəl üstündədir - bir tərəfdən Rusiya ilə (geosiyasi və iqtisadi baxımdan asılıdır) olmaq zərurəti var, digər tərəfdən isə böyük erməni diasporunun yaşadığı Qərbə və Amerikaya can atma mövcuddur. Bütün bunlar cəmiyyəti parçalayır. Ermənistanı bu məsələdə müsbət heç nə gözləmir və hadisələrin gedişi Qarabağ münaqişəsində də Ermənistanı daha zəif tərəf halına salır".

Digər ekspertlər də hesab edir ki, qonşu dövlətlərə qarşı əsassız və istinadsız olaraq ərazi iddiası Ermənistanın Qərbə inteqrasiyasını əngəlləyir, üçüncü qüvvələrin bölgədə maraqlarının təmin olunmasına, sabitliyi pozmasına, regionun təhlükəsizliyinin təhdid olunmasına yardım edir. Erməni cəmiyyətində bu hala qarşı çıxanlar hesab edir ki, İrəvan artıq Qarabağ münaqişəsinin həllində əməli addımlar atıb Qərbə real şəkildə inteqrasiya etməlidir. Amma ölkədə Rusiyanın təsirinin qalmasını istəyənlər fərqli mövqedə dayanır və bu da cəmiyyətdə parçalanmanı sürətləndirir. Digər tərəfdən nəzərə almaq lazımdır ki, əslində, Ermənistan cəmiyyəti belə ermənilərdən xilas olmaq üçün 2018-ci ildə hakimiyyət dəyişikliyi elədi. Amma görünür, onların bundan artığına gücləri çatmadı. Qərblə inteqrasiyaya qarşı olanlar hələ də Ermənistanda əsas söz sahibləri sırasında yer alır. Onların fəaliyyəti erməni cəmiyyətinin parçalanmasını dərinləşdirir. Bunu artıq hakimiyyətdə olanlar da etiraf etməyə başlayıb. Ermənistanda çıxan "Past" qəzetinin yazdığına görə, Nikol Paşinyan ermənilər arasında parçalanmanın yaranmasını araşdırmaq üçün bir müddət əvvəl güc strukturlarına tapşırıq verib. Bütün bunlar təsadüfi sayılmır. Çünki Nikol Paşinyan vəziyyətə nəzarət etməsə, onun üçün də yeni sürpriz hadisələrin baş verəcəyini yaxşı görür. Bu həm də onu göstərir ki, Qarabağın işğalı artıq Ermənistanın dövlət olaraq varlığına ciddi təhdid yaradır. Ermənistan iqtisadiyyatının xaricdən asılılığı, ölkəyə edilən yardımlara "Qarabağ ermənilərinin" şərik çıxması, xarici siyasət kursunda problemlər, ölkə əhalisinin daim vahimə və xof içində yaşaması, ictimai, siyasi və iqtisadi sabitliyin olmamasının başlıca amili ermənilərin Azərbaycan torpaqlarına iddiası, işğalçılığıdır. Məhz bu vəziyyətdə erməni cəmiyyətində münaqişənin həllinin tezləşməsini istəyənlərin sayının artması təbii qarşılanır. Paşinyanın bu reallığı nəzərə almaması isə onun əleyhinə işləyən əsas faktorlardan birinə çevrilmək iqtidarındadır.

Ekspertlər burada diqqəti həm də ona yönəldir ki, Nikol Paşinyan və onu dəstəkləyən siyasi qüvvələr daha çox qərbyönlülərdir. Əks mövqedə dayananlar, xüsusən də "Qarabağ klanı" isə birmənalı olaraq Rusiya təmayüllüdür. Hazırda yaranmış vəziyyətdə Ermənistan ermənilərı Qərbə inteqrasiyaya üstünlük verir və onlar üçün Azərbaycan torpaqlarının işğalı elə də prioritet deyil. Əks mövqedə dayanan "Qarabağ klanı" isə işğalı davam etdirməyə tərəfdar olmaqla Ermənistanın inkişafının qarşısını alır. Son bir ildə baş verənlər onu da sübut edib ki, Dağlıq Qarabağın işğal altında saxlanması Ermənistanın beynəlxalq nüfuzuna da zərbə vurur. Çünki Paşinyanın hakimiyyətə gəlişindən sonra İrəvanın beynəlxalq miqyasda nüfuzu heç də müsbət istiqamətdə dəyişməyib. Artıq bu reallığı ermənilərin özləri də inkar etmir. Deməli, Qarabağ məsələsi və "Qarabağ erməniləri" Ermənistanın müstəqilliyinin təhdid edilməsi üçün əsas alətə çevrilib. Çıxış yolu da yox deyil. Bu yol Ermənistanın Qarabağın işğalından əl çəkməsindən, qonşulara yersiz və əsassız ərazi iddiaları irəli sürməkdən imtinasından, başqalarının əlində alət olmaqdan qurtulmasından keçir. Bu yolu tutan Ermənistan isə, ilk növbədə, bölgə üçün dövlətin pozuculuq fəaliyyəti ilə məşğul olmasının qarşısını alar, Cənubi Qafqazın Qərbə inteqrasiyasını sürətləndirər. Lakin hələlik Ermənistan bu yoldan uzaqdır. Dağlıq Qarabağın işğalı bu fonda ölkənin getdikcə daha sürətlə formallaşan müstəqilliyini, suverenliyini təhdid edir. Erməni cəmiyyətində çoxları bu reallığı görüb, hakimiyyətdən Qarabağ məsələsində real addımların atılmasını tələb edir. Paşinyan bu reallığı nəzərə almasa, yuxarıda qeyd olunduğu kimi, Ermənistanı daha ciddi qarşıdurma və parçalanma gözləyir. Bu isə bir dövlət kimi Ermənistanın sonunu daha tez gətirəcək. İndilikdə isə Qarabağ münaqişəsinin davamı Ermənistanın qarşısına daha ciddi geosiyasi, hərbi və iqtisadi problemlər çıxarmaqdadır. Digər tərəfdən, münaqişəyə münasibətdə erməni cəmiyyətində parçalanma sürətlə dərinləşir. Münaqişənin həllinə yanaşmada fərqlər getdikcə özünü daha çox göstərir. Qeyd olunduğu kimi, bir qrup Azərbaycanla dil tapmağın zəruriliyini anlayır. Digərləri isə qətiyyətlə buna qarşı çıxır. Hələlik barışmaz mövqedə olanlar çoxluq təşkil edir. Ancaq Ermənistanın dövlət olaraq tənəzzülə uğraması tamamilə fərqli şərait də yarada bilər. Eyni zamanda o da nəzərə alınır ki, Ermənistanda situasiyanı sabitlikdən çıxaran məsələ Dağlıq Qarabağda hərbi vəziyyətin kəskinləşməsi ola bilər.

Bu cür daxili ziddiyyətlərin fonunda ölkədə siyasi güclərin mövqeyi və onlar arasındakı münasibətlər gərginliyin artması ehtimalını xeyli yüksəldir. Bütün bunlardan aydın olur ki, Ermənistanın siyasi səhnəsi qarşıdurmalarla zəngindir. Artıq aydın şəkildə belə nəticə alınır ki, Ermənistanda yeni siyasi mərhələ başlayıb. Onun başlıca xüsusiyyəti ziddiyyətlərin kəskinləşməyə doğru getməsi və bunun fonunda Qarabağ münaqişəsinin erməni cəmiyyətini daha sürətlə parçalamasıdır. Aydındır ki, münaqişə həllini tapmasa, erməni cəmiyyətinin çöküşü daha sürətli xarakter alacaq və bu, işğalçı ölkədə kimin hakimiyyətdə olmasından asılı olmayaraq, onun zəif mövqedə olmasını şərtləndirəcək. Bütün bunlardan yeganə xilas yolu isə münaqişə ətrafında Azərbaycanla razılığa getməkdir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bir neçə gün əvvəl UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakı sessiyasında UNESCO-ya daxil edilən Şəki Xan Sarayı öz gözəlliyi və unkallığı ilə dünya turistlərinin diqqət mərkəzindədir.**

# Bioloq alimlər də Şəki Xan Sarayı qarşısındakı 500 illik ağacdan budaq qopmasını sırf təbii hadisə sayır

## *Vahid Fərzəliyev: "Şəki Xan Sarayının qarşısındakı 500 illik xan çinarın budağının qırılmasını birbaşa təbiət amili ilə bağlayıram"*



*"Həm aramsız yağış, həm də güclü külək o ağacda deformasiya yaradıb"*

Məlum olduğu kimi, iyulun 14-də Şəki Xan Sarayının həyətində 500-ə yaxın yaşı olan xan çinar ağacının budağının qırılaraq yerə düşməsi nəticəsində ərazidə olan turistlər xəsarət alıblar. Hadisə zamanı 19 nəfərin müxtəlif dərəcəli bədən xəsarəti aldığı bildirilir.

Hadisə baş verdikdən dərhal sonra Bakıdan FHN-in helikopterləri vasitəsilə Səhiyyə Nazirliyinin təcrübəli reanimatoloq, neyrocərrah, travmatoloq və digər həkimləri Şəki rayonuna göndəriliblər. Eyni zamanda, baş vermiş hadisənin səbəblərinin müəyyənləşdirilməsi məqsədilə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Mədəniyyət nazirliklərinin və Baş Prokurorluğun məsul şəxsləri Şəki şəhərinə ezam olunublar.

Hadisə ilə əlaqədar Baş Prokurorluğun 492-55-40, FHN-in 112 və Səhiyyə Nazirliyinin 498-78-46 saylı "qaynar xətt" əlaqə mərkəzləri yaradılıb.

Baş vermiş hadisə və xəsarət alan şəxslərin müalicəsini Prezident İlham Əliyev xüsusi nəzarətə götürüb.

Mütəxəssislərin bildirdiyinə görə, Şəki şəhərindəki Xan Sarayının həyətindəki xan çinar 1530-cu ildə əkilib. Gövdəsi 7.3 metrdir. Hündürlüyü 34 metrdir. Xan Sarayının qarşısında olan çinarlar "Qırmızı kitab"a salındığından, onları kəsmək qadağandır. Çinarlar Şərq çinarı növünə aiddirlər. Ağacların Xan Sarayının binası üçün hələlik təhlükəsi olmadığı deyilsə də, 500 illik yaşı olan bu ağacın təxminən 50 sm diametrində olan budağının qəflətən qırılaraq həmin vaxt sarayın həyətində olan turistlərin üzərinə düşdüyü məlumdur.

500 illik ağacın gövdə və budaqlarında bioloji olaraq hansı proseslər gedə bilər? Hadisə ağacın budaqlarının çürüməsi nəticəsində baş verə bilərmi?

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Nəbatat Bağının direktor əvəzi, biologiya elmləri doktoru, dosent Vahid Fərzəliyev "Bakı-Xəbər"ə bildirdi ki, hadisənin baş verməsinə səbəb təbiət amilidir.** V.Fərzəliyev hesab edir ki, hadisənin baş verməsində antropogen təsirin rolu yoxdur. "Mən Şəki Xan Sarayının qarşısındakı 500 illik xan çinarın budağının qırılmasını birbaşa təbiət amili ilə bağlayıram. Bilirsiniz ki, son günlər davamlı olaraq möhkəm yağışlar yağıb. Nəzəri alın ki, ağacın özü də kifayət qədər yaşlı ağacdır. Aramsız yağışlar çinarın budaqlarını ağırlaşdırıb və onun qırılmasına

*"...ondan nümunələr götürülsün, bundan sonra budağın qırılma səbəbi tam aydın olar"*

səbəb olub. Nəmişliyin yaşlı ağaclara mənfi təsirləri çoxdur. Yağış nəticəsində yaranan nəmişlik də budağı ağırlaşdırıb. Həm aramsız yağış, həm də güclü külək o ağacda deformasiya yaradıb. Bununla belə, gərək həmin ağac və onun sınan budağı dərindən analiz edilsin, ondan nümunələr götürülsün, bundan sonra budağın qırılma səbəbi tam aydın olar".

V.Fərzəliyev qeyd etdi ki, xan çinarlar Şərq ölkələrindən, Aralıq dənizindən tutmuş, Qafqaza, Orta Asiyaya qədər hər yerdə əkilir və bu uzunömürlü ağac növüdür. Hələ qədim dövrlərdən Azərbaycanda xan çinar əkildiyini deyən müsahibimizin sözlərinə görə, həm bu ağacın kölgəsi yaxşı olur, həm o güclü mikro klimaks yaradır, həm də xəstəliklərə və zərərvericilərə qarşı davamlıdır. "Xan çinar çox gözəl ağac növüdür və onu vaxtında əkiblər. Bir ağac kimi xan çinar çox qiymətli ağacdır və Azərbaycanın "Qırmızı kitabı"na daxil olub. Eyni zamanda da həmin xan çinarın özü tarixi bir abidədir" - deyə bildirən V.Fərzəliyev təbiətin təsiri ilə baş verən olayın üzücü olduğunu da qeyd etdi. Onun sözlərinə görə, bu cür təbiət hadisəsi yalnız Azərbaycanda deyil, bütün dünyada baş verə bilər.

*İradə SARIYEVA*

**Artıq uzun ilıərdir ki, gənclərin vətənpərvər ruhda, Azərbaycançılıq ideologiyası əsasında böyüməsi, tərbiyə olunması istiqamıətində müvafiq tədbirlər həyata keçirilir, addımlar atılır. Bu istiqamətdə ölkəmizdə bir sıra kompleks tədbirlər həyata keçirilir. Həm dövlət orqanları, həm ictimai təşkilatlar, həm də mətbuat orqanları, televiziyalar və s. bununla bağlı çoxsaylı tədbirlər, görüşlər, müzakirələr təşkil edirlər.**

# Gənc nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyevin xidmətləri əvəzsiz olub




Lakin o da danılmaz faktdır ki, bu istiqamətdə nə qədər çox çalışmalar olarsa o qədər də faydalı nəticələr əldə edilər. Çünki ölkəmiz müharibə şəraitindədir, torpaqlarımızın 20 faizi işğal olunub, çox sayda insanımız yurd-yuvasından qovulub. Azərbaycan təcavüzə məruz qalıb. Belə bir şəraitdə biz gənclərimizin milli mənlik şüurunun inkişaf etdirilməsinə, onların vətənpərvərlik ruhunun artırılmasına çox əmək sərf etməliyik. Vətənpərvərlik məsələsi elədir ki, bu istiqamətdə çalışmaları lap uşaq yaşlarından başlayıb, daha sonra yeniyetməlik yaşlarında və gənclik illərində daha da güclü bir şəkildə davam etdirmək lazımdır.

Ona görə də təsadüfən demirlər ki, vətənpərvərlik istiqamətində tədbirlər, işlər bağçalardan başlamalıdır. Daha sonra bu prosesi orta məktəbdə və ali məktəbdə gücləndirmək lazımdır.

Bu gün Ali Baş Komandan, cənab Prezident İlham Əliyev gənclərə ən bariz vətənpərvər nümunədir desək yanılmarıq. Müntəzəm olaraq əsgər və zabitlərin ali baş komandanı cəbhə xəttində, səngərdə görmələri onlara böyük ruh yüksəkliyi verir. Mən bunu prezident İlham Əliyevin orduya xüsusi diqqəti və qayğısı kimi qiymətləndirirəm. Müharibə şəraitində olan bir ordunun ali baş komandanının hərbçilərimizlə əyani şəkildə görüşməsi hərbçilərimizdə, eyni zamanda xalqımızda dövlətə, orduya olan inamı daha da artırır. Dövlət başçısının hərbçilərlə görüşü zamanı etdiyi çıxışlar onları daha da ruhlandırır. Bu səfərlər eyni zamanda ordu rəhbərliyinin məsuliyyətini daha da artıran məqamlardandır. Onlar ali baş komandanın birbaşa diqqətini gördükcə məsuliyyətlərini daha da artırırlar. Bütün bunlar hamısı son dövtlər ordumuzun cəbhə xəttində düşmənin təxribatlarına layiqli şəkildə cavab verməsində də özünü bariz şəkildə göstərir. Dövlət başçısını cəbhədə görən hərbiçilərimiz daha da ruhlanırlar. Bu həm də gənclərdə, sabahın əsgərlərində bir qürur yaradır. Onların vətənpərvərlik hisslərini daha da artlrır.

Yaxın tarixə nəzər salsaq görərik ki, gənc nəslin vətənpərvər ruhda böyüməsində ümummilli lider Heydər Əliyevin xidmətləri böyük olub. Heydər Əliyev rəhbərlik etdiyi bütün illərdə milli-mənəvi dəyərlərimizə həmişə qaygı ilə yanaşıb və bununla bağlı bəyanatlarla çıxış edib, fərman və sərəncamlar imzalayıb. O, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirməyin dövlətimiz, xalqımız qarşısında ən zəruri, həlli qaçılmaz vəzifələr olduğunu 13 avqust 2001-ci il tarixli bəyanatında da söyləmişdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adətənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülüb. Ümummilli lider bu məsələdən bəhs edərkən belə deyirdi: "Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və cıxışlarında həmişə qururla soylənilirdi. Heydər Əliyev gostərirdi ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir.

***Süleyman***

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

# İrəvanın məşhur Sərdar Sarayının eksponatları Tiflisdə harada saxlanır?

## **Solmaz Tohidi:** *"O eksponatların aşkarlanmasının özü böyük bir hadisədir"*

**İrəvanın məşhur Sərdar Sarayı (İrəvan xanlarının sarayı) 300 ildən artıq bir dövrdə Cənubi Qafqazın ən möhtəşəm saraylarından biri kimi mövcud olub. Rus işğalına qədər öz əzəmətini qoruyan Sərdar Sarayında İrəvan xanları yaşayıblar. Sərdar Sarayı çar ordusunun işğalından sonra əraziyə köçürülən ermənilər tərəfindən dağıntıya məruz qalıb.**

İrəvan sərdarı Əmirqunə xan Qacar (1605-1625) tərəfindən ucaldılan, 1760-1770-ci illərdə İrəvan xanı Hüseynəli xan (1762-1783) tərəfindən təkmilləşdirilən sarayda 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan (1784-1805) sarayın Şüşəbənd adı ilə tanınan Güzgülu salonu və Yay imarətini inşa etdirib.

Sərdar sarayının Böyük qəbul otağının divarında Sərdar Hüseyn xanın, qardaşı Həsən xanın, farsların əfsanəvi qəhrəmanı Fəraməzin, Fətəli şahın (1797-1834), Abbas Mirzənin (1784-1833), Rüstəm və Söhrabın portretləri olub. Saray 1913-1918-ci illərdə ermənilərin təcavüzünə məruz qalıb, dağıdılıb. Saraydakı portretlər çıxarılaraq Tiflisə aparılıb və hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanmaqdadır. 1918-ci ildə isə ermənilər sarayı yerlə-yeksan ediblər.

Sərdar Sarayına aid olan əşyalar, portretlər və digər eksponatların taleyi uzun illər idi ki, müəmmalı olaraq qalırdı.

Bəzi tədqiqatçılar qeyd edirlər ki, saray İvan Paskeviç tərəfindən işğal edildikdən sonra saraya aid bütün qiymətli əşyalar Rusiya muzeylərinə daşınıb. Bəziləri isə Sərdar Sarayına aid eksponatların ermənilər tərəfindən mənimsənildiyini bildirirlər. Son dövrlər üzə çıxan məlumatlara görə isə bu eksponatlar Tiflisdə, olduqca ağır şəraiti olan zirzəmidə saxlanır.

Artıq Azərbaycan tərəfi Sərdar Sarayının eksponatlarının izinə düşüb. Belə ki, o eksponatların xeyli hissəsi Heydər Əliyev Mərkəzində açılan "Tarixin şah əsərləri" adlı sərgidə nümayiş olunur. Qacarlar sülaləsi dövründə yaradılan və toplanan Azərbaycan incəsənəti nümunələri, İrəvan xanlarının sarayı və ya Sərdar Sarayından yadigar qalan məişət əşyalarının nümayiş olunması diqqəti çəkir.

Mediada tarixi İrəvan qalası və ermənilər tərəfindən məhv edilmiş Sərdar Sarayı ilə bağlı maraqlı faktlar yer alıb. Onu da vurğulayaq ki, Sərdar Sarayına aid eksponatların heç də hamısı qalmayıb, onların xeyli hissəsi məhv edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Solmaz Tohidi Fransanın Anadolu Araşdırmaları Mərkəzi ilə G.Sereteli adına Gürcüstan Dövlət Şərqşünaslıq İnstitutunun birgə təşkil etdiyi "Geriyə və gələcəyə baxış: İranın Qafqazda təsirinə dair" mövzusunda beynəlxalq elmi konfransa iştirak edərkən Sərdar Sarayının eksponatlarının izinə düşüb. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin eksponatlar Gürcüstanda zirzəmidə saxlanıb: "Orada gürcü tarixçiləri ilə söhbət edən zaman bəlli oldu ki, İrəvan qalası dağıdıldıqdan sonra bütün tarixi nümunələr Gürcüstana aparılıb. Tarixçilərlə zirzəmiyə baxan zaman gözlərimə inana bilmədim. Bu gün Heydər Əliyev Mərkəzində sərgilənən eksponatlar orada idi. Daha sonra ölkəyə qayıdıb bu barədə aidiyyəti orqanlara məlumat verdik.

Ermənilərin dağıtmaq istədiyi tariximizə sahib çıxdıq. Bu gün tarixi İrəvan qalası, Sərdar Sarayından qalan eksponatlar aid olduğu yerdədir. Bu günə qədər dünya tarixçiləri İrəvan xanlığını Azərbaycan xanlığı kimi qəbul etmirdi, hətta gürcü iranşünaslar belə bu fikirdə idi. Nəhayət, biz bunu sübut etdik" - deyə qeyd edən alimin sözlərinə görə, müxtəlif mənbələrdən toplanan məlumatlara görə, illər əvvəl Gürcüstanda zirzəmidə saxlanan eksponatlar üç bölmədə - Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar Sarayı kompleksindən məişət əşyaları və rəsm əsərlərinin kolleksiyası əsasında olub. Həmin eksponatlar arasında rus fotoqraf, 1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsində iştirak etmiş Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər də yer alıb. Dmitri Yermakov həm də İrəvan qalasının nadir tikililəri - Sərdar Sarayı, məscidlər, karvansara və İrəvan şəhərinin tarixi mərkəzini təşkil etmiş orta əsrlərə aid digər binaların məhv edilməsi prosesini təfərrüatı ilə göstərən fotoşəkillərin müəllifidir.

Gürcü tarixçilərin məlumatına görə, məşhur İrəvan xanlığına, Sərdar Sarayına aid əşyalar İrəvan qalası dağıdıldıqdan sonra ruslar tərəfindən Tiflisə aparılıb. Həmin eksponatların Tiflisdəki Qafqaz muzeyinə təhvil verilməsi isə XX əsrin birinci rübünə (Sərdar Sarayının dağıldığı ərəfələr - red.) təsadüf edib. İrəvan xanlığı, İrəvan qalası, Sərdar Sarayı ilə bağlı araşdırmalar aparan tanınmış gürcü alim Georgi Beradze də bu məlumatları təsdiq edib.

Alim vurğuladı ki, lakin hər şey bununla bitməyib. Onun sözlərinə görə, aparılan eksponatlar arasında itirilən, sınan parçaların olduğu da güman edilir. Sərdar Sarayının digər əmlakları arasında mebel dəstləri, məişət əşyaları, musiqi alətləri, silah-sursatlar olub. Tarix boyu dillərə dastan olan, eksponat kimi qorunub saxlanan xalçalarımız, onlar haqqında yazılan məqalələrlə yanaşı, bütün bu tarixi faktları görməzdən gələrək həmin xalçaları mənimsəməyə çalışan düşmənlər də az olmayıb.

Alim qeyd edir ki, XX əsrin ortalarında İrəvan xanlığı və Sərdar Sarayının salamat qalmış orijinal əsərləri, saray kompleksinin məscid və sarayının dekorunda istifadə edilən köhnə plitələr Mirzə Qədim İrəvani tərəfindən yenidən boyanaraq istifadəyə yararlı hala salınıb. Beləliklə, vaxtilə Azərbaycan memarlığının incilərindən biri olmuş tarixi saraydan təəssüf ki, sınıq-sökük, uzun illər baxımsız vəziyyətdə olmuş əşyalar qalıb.

S.Tohidinin sözlərinə görə, Tiflisin Milli Rəsm Qalereyasında saxlanan bu eksponatların Azərbaycana gətirilərək restavrasiya olunmasında və həmin eksponatlardan ibarət sərginin açılmasında Heydər Əliyev Fondunun böyük rolu var. "Bu olduqca maraqlı və unikal bir sərgidir. Hər kəsə tövsiyə edərdim ki, gedib o sərgiyə baxsın. Mədəniyyət Nazirliyi və Prezident Administrasiyasının təşkil etdiyi bu sərgi sentyabra qədər davam edəcək. Bu eksponatları Gürcüstan həmişəlik bizə verməz. Amma çox böyük iş görüb o eksponatları bizə veriblər, biz onları restavrasiya edib sərgiləyirik. Bu eksponatların Azərbaycana gətirilərək bərpa edilməsində və sərgilənməsində Heydər Əliyev Fondunun və Prezident Administrasiyasının böyük rolu var.



*"Bu eksponatların Azərbaycana gətirilərək bərpa edilməsində və sərgilənməsində Heydər Əliyev Fondunun və Prezident Administrasiyasının böyük rolu var"*

Həmin eksponatlarla bağlı artıq bir kitab nəşr olunub. İndi onun bukletlərini çap edəcəyik. Gələcəkdə də bu eksponatlarla bağlı müştərək işlər başlayacağı gözlənir. Əsas odur ki, əlimizdə bu qədər fakt var. Bu eksponatların Tiflisdən tapılması da mühüm hadisədir. Sərdar Sarayına aid olan eksponatlar Gürcüstanda vaxtilə saxlandığı zirzəmidən çıxarılıb və Gürcüstan Milli Qalereyasında yerləşdirilib. Burada sarayın mebelləri, başqa əşyaları, o cümlədən də daşlar saxlanır. Bunlar hamısı sərgi üçün ölkəmizə gətirilib. Bu bizim tariximizdir. Əsas odur ki, bu eksponatlar var, saxlanır və Azərbaycan onu öz eksponatları kimi bərpa edib sərgilədi. Sərdar Sarayına aid eksponatlar çox dəyərlidir. O eksponatların aşkarlanmasının özü böyük bir hadisədir" - deyə müsahibim qeyd etdi.

***İradə SARIYEVA***

# Gömrüklərdə saxlanan tez xarab olan mallara məcburi sığorta təklifi...

**Bu gün Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının bir qismi ixrac olunur. İxrac olunan aqrar məhsullar bəzən nəzarət-buraxılış, gömrük məntəqələrində müəyyən səbəblərdən saxlanır. Məhsulların xarab olmaması üçün xüsusi anbarlarda yerləşdirilir.**

*”Kənd təsərrüfatı məhsulları gömrük məntəqələrində qalırsa, bir qismi qısa zamanda xarab olur və sahibkara, fermerə ziyan dəyir”*

*Vüqar Bayramov: ”Maliyyə Bazarlarına Nəzarət Palatası və sığorta şirkətləri çalışmalıdırlar ki, aqrar sığortadan istifadənin dairəsi genişlənsin”*



Buna rəğmən, bəzən tez xarab olan məhsulların müəyyən hissəsi istifadəyə yararsız olur. Təbii ki, bu hal sahibkarların işinə mənfi təsir edir.

Bu səbəbdən də Maliyyə Bazarlarına Nəzarət Palatası saxlanc yerlərində müvəqqəti saxlanan malların icbari sığortasını təklif edib. Nəzarət-buraxılış məntəqələrində, gömrük məntəqələrində və digər saxlanc ərazilərində saxlanan, sahibkarlara məxsus malların sığortalanmasına nail olmaq üçün işlər aparılır.

Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin sədri vəzifəsini icra edən İbrahim Alışov qeyd edib ki, Dövlət Gömrük Komitəsi və digər qurumların müvəqqəti saxlanc yerlərində sahibkarlara məxsus əmlakların icbari qaydada sığortalanması məhsulu barədə düşünülür. Bu gün bu məhsula böyük ehtiyac var.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı Vüqar Bayramov dedi ki, kənd təsərrüfatı məhsulları nəzarət-buraxılış məntəqələrində, gömrük məntəqələrində qalırsa, bir qismi qısa zamanda xarab olur və sahibkara, fermerə ziyan dəyir.** Əslində, fermerlər, sahibkarlar məhsullarını həm də belə ziyanlardan sığorta etdirməyə çalışmalıdırlar: "Nəzərə almaq lazımdır ki, nəzarət-buraxılış məntəqələrində, gömrük məntəqələrində sahibkarın məhsulu qalırsa, bir qismi xarab olur və nəticə etibarilə o itirir. Amma aqrar sığorta olarsa, sahibkara dəymiş ziyan sığorta şirkəti tərəfindən ödəniləcək".

Onun sözlərinə görə, hazırda aqrar sığorta təklif olunsa da, bundan istifadə səviyyəsi olduqca aşağıdır: "Dövlət büdcəsindən ayrılan vəsaitlər belə istifadə olunmur və büdcəyə qayıdır. Ona görə bu istiqamətdə də təkmilləşdirmənin aparılmasına ehtiyac var. Birmənalı şəkildə Maliyyə Bazarlarına Nəzarət Palatası və sığorta şirkətləri çalışmalıdırlar ki, aqrar sığortadan istifadənin dairəsi genişlənsin".

***Günel CƏLİLOVA***

# Altı ayda investisiya qoyuluşu azı 3 faiz azalıb...

**Rəsmi məlumata görə, 2019-cu ilin yanvar-iyun aylarında Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyalar 6 milyard 131 milyon 600 min manat təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə investisiyaların həcmi 200 milyon 100 min manat, yaxud 3,1 faiz azalıb.**

*”Belə hallarda iqtisadiyyatda istənilən nəticəni əldə etmək mümkün deyil”*

*Fikrət Yusifov: ”Hesab edirəm ki, bu haradasa, bütövlükdə, yatırımların daxili və xarici mənbələr hesabına azalması ilə bağlıdır”*




2019-cu ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 6 milyard 131,6 milyon manat vəsait yönəldilib, sərf edilmiş vəsaitin 68,4 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil edib. 2018-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 6 milyard 331,7 milyon manat vəsait yönəldilib.

Ümumi sərmayənin 63,8 faizi məhsul istehsalı sahələrinə, 26,6 faizi xidmət sahələrinə, 9,6 faizi isə ümumi sahəsi 1087,7 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunub.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 71,3 faizini təşkil edib. Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 56,7 faiz, büdcə vəsaitləri 27,7 faiz, əhalinin şəxsi vəsaitləri 7,0 faiz, bank kreditləri 6,8 faiz, büdcədənkənar fondların vəsaitləri 1,4 faiz, sair vəsaitlər isə 0,4 faiz təşkil edib.

Maraqlıdır, ötən ilin eyni dövrü ilə müqayisədə iqtisadiyyata sərmayə qoyuluşu niyə azalıb?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, iqtisadiyyata birbaşa sərmayə qoyuluşunun azalmasının səbəbləri ayrı-ayrılıqda araşdırılmalıdır:** "Çünki ölkə iqtisadiyyatına sərmayə qoyuluşunun azalması yaxşı hal deyil. Belə hallarda iqtisadiyyatda istənilən nəticəni əldə etmək mümkün deyil. Xüsusən də Azərbaycan iqtisadiyyatında investisiyanın səviyyəsini böhrandan əvvəlki səviyyəyə çatdırmaq olduqca önəmlidir. Hesab edirəm ki, bu hardasa, bütövlükdə, yatırımların daxili və xarici mənbələr hesabına azalması ilə bağlıdır. Fikrimcə, bunun səbəbləri ayrı-ayrılıqda araşdırılmalıdır ki, nəyə görə sərmayə qoyuluşu azalır. Ola bilsin ki, burada bir sıra həm obyektiv, həm də subyektiv səbəblər var.

Ancaq, hər halda, hesab edirəm ki, bütövlükdə, dövlət özü də sözügedən sahədə məsələləri xüsusi diqqətdə saxlayıb investisiyaların həcminin artırılmasına çalışmalıdır.

Məxsusən də o investisiyaları ki, onlar iqtisadiyyatda əlavə dəyər, yeni məhsul yaradırlar, yeni iş yerlərinin yaradılmasına rəvac verirlər. Fikrimcə, bu yöndə lazımdır ki, işlərimizi bir az da intensivləşdirək.

**O məqsədlə ki, ümumi iqtisadiyyatımız daha yaxşı nəticələr əldə etsin. Fikrimcə, iqtisadiyyata sərmayə qoyuluşunun azalmasının daxili, yoxsa xarici mənbələr hesabına baş verməsinin səbəbləri araşdırıldıqdan sonra bütün bunlar aydınlaşacaq".**

***Vidadi ORDAHALLI***

# Kapron butulkalarda sərinləşdirici içki satışında qorxulu qayda pozuntusu - soyuducudan bayıra, bayırdan soyuducuya...

**Havaların isinməsi ərzaq məhsullarının saxlanmasına diqqətin daha da artması məsələsini gündəmə gətirir. Bu gün meyvə-tərəvəzin 30-35 dərəcə temperaturda günəş şüalarının altında satılması adi hala çevrilib. Təbii ki, yay aylarında tələbatın daha da çoxaldığı su xüsusilə narahatlıq yaradan problemlərdəndir.**

***Eyyub Hüseynov:*** *"... insanları tədricən zəhərləyir"*

***Rasif Bağırov:*** *"Açıq havada satılan içkilər insan orqanizmi üçün zərərlidir"*

Çünki ölkənin bütün topdan və pərakəndə satış obyektlərinin qarşısında müxtəlif qablarda qablaşdırılımış suların alqı-satqısının həyata keçirildiyini görmək mümkündür.

Yol kənarında satılan sular günün müəyyən saatlarında soyuducuda, bəzi vaxtlarda isə açıq havada satışa çıxarılır. Beləliklə, plastik butulkalarda olan sular soyuducudan açıq havaya, açıq havadan isə təkrar soyuducuya qoyulur. Təbii ki, bu, suyun tərkibinə mənfi təsir göstərir.

Ekspertlər isə plastik qablarda satılan suyun insan üçün zərərli olduğunu deyirlər. Amma buna baxmayaraq, satıcılar bu məsələni qətiyyən düşünmürlər. Nəticədə müxtəlif plastik və şüşə qablardakı sular açıq havada, xüsusilə isti şəraitdə qaldıqdan sonra standartlara cavab veribvermədiyi bilinmədən istifadə olunur.

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, sahibkarlıq subyektləri dövlətin yaratdığı toxunulmazlıq şəraitindən tam sui-istifadə edir və istehlakçı hüquqlarını pozurlar:** "Bu sahədəki problemlərin aradan qaldırılması istiqamətində Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətindən çox şey gözləyirik. Fikrimcə, xüsusilə plastik qablardakı suların günəş şüaları altında satılması təhlükəlidir. Çünki bu sular insanların sağlamlığında öz mənfi izlərini qoyur. Onların tərkibindəki kimyəvi maddələr yayda aktivləşərək sulara miqrasiya edir və insanları tədricən zəhərləyir. Bu cür sular, ən azı, otaq



temperaturunda saxlanmalıdır. Hətta körpə qidaları da 20 dərəcə temperaturdan aşağı saxlanmalıdır. Mağazalarda isti şəraitdə saxlanan uşaq qidaları körpələri tədricən zəhərləyir".

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, plastik butulkalarda satılan suların soyuducudan çıxarılıb açıq havaya qoyulması, sonradan təkrarən həmin suların soyuducuya qaytarılması insan sağlamlığına ciddi zərər vurur. Onun sözlərinə görə, yay fəslində qidaların açıq havaya çıxarılması onların həm temperatur təsirinə məruz qalmasına, həm qidada xarabolma prosesinin başlamasına və həmçinin, insan orqanizmi üçün artıq qeyri-sağlam hala düşməsinə səbəb olur: "Havaların isti keçdiyi vaxtda açıq havada plasmas qablarda satılan suları insanlar alıb istifadə edirlər.

Bu suların alınıb istifadə edilməsi də insan orqanizmi üçün təhlükəlidir. Açıq havada satılan içkilər insan orqanizmi üçün zərərlidir, xüsusilə də zəhərlənmə və mədə-bağırsaq pozuntularına gətirib çıxara bilər".

***Günel CƏLİLOVA***

# Adi qızdırma ilə özəl klinikalara aparılan uşaqlara ən bahalı analizlər yazılır - sifilis, QİÇS, hepatit...

**Azərbaycanda dövlət xəstəxanalarına güvənin azaldığı vaxtda valideynlər uşaqlarında bir xəstəlik görən kimi tez özəl klinikaya çatdırırlar. Onlar övladlarının xilası üçün hər şeyə hazır olurlar. Özəl klinikaların bir çoxu isə bundan istifadə edərək vətəndaşları aldadır. Belə ki, lazımsız analizləri xəstəyə "yükləyirlər".**

***Aytən İsmayılzadə:*** *"Əksər özəl xəstəxanada körpə uşaqlardan lazımsız analiz götürülür"*

Adi hərarətin yüksəlməsi və ya soyuqdəymə ilə bağlı valideynlər uşaqlarını həkimə aparırlar. Özəl klinikalarda çalışan həkimlər isə daha çox qazanc əldə etmək üçün azyaşlı uşaqdan istifadə edirlər. Hərarəti yüksələn 3 yaşına kimi uşaqlardan lazımsız analizlər götürülür. Acınacaqlı hal odur ki, körpə uşaqlardan QİÇS, hepatit və sifilis analizi götürülür. Beləliklə, həm uşaqdan lazımsız yerə qan alınır, həm də valideyn boş yerə adıçəkilən xəstəliklər üçün pul ödəməli olur. Məlumdur ki, hepatit, sifilis və QİÇS xəstəlikləri üçün analizin qiyməti olduqca bahadır.

**Bioloji Təbabət Klinikasının həkimi, pediatr Aytən İsmayılzadə bildirdi ki, əksər özəl xəstəxanada körpə uşaqlardan lazımsız analiz götürülür:** "Bu yaxınlarda 3 yaşlı pasiyentin valideyninin mənə göndərdiyi analiz nəticələrini görəndə dəhşətə gəldim. 3 yaşlı uşağın hərarəti 39,5-ə qalxıb. Uşaq özəl klinikaya aparılıb. Uşaqdan analizlər götürürlər ki, virusdan şübhələnirik. Sonra palataya keçirib, venadaxili infuziya edirlər.

Ana ilə əlaqə saxlayıb, analizin nəticələri ilə maraqlanıram. Ananın göndərdiyi testlərlə tanış olanda dəhşətə gəldim. 3 yaşlı uşaqda Hepatit B, C, QİÇS, sifilis, sitomeqalovirusun hər 2 forması yoxlanıb. Bu analizləri körpə uşaqlar üzərində etməyin məqsədi nədir? Pula görə azyaşlı uşaqları və onların valideynlərini bu qədər təlaşlandırmağa nə lüzum var? Bu xəstəliklərin adı insanları təlaşlandırır. Övladının hepatit, sifilis və ya QİÇS daşıyıcısı olduğunu ehtimal edənlər nə hala düşürlər? Özəl xəstəxanalarda uşaq üçün əməliyyat paketinə daxil olan bu analizləri etməkdə məqsədləri nədir?




**Bu sualı özəl xəstəxanada çalışan şəxslərə ünvanladım. Onlar isə cavabında bildirdilər ki, uşağa sistem vurulur və palatada yatdığı üçün bu analizlər paketə daxildir. Maraqlıdır, hər sistemə gələn paketə daxil analiz edilir?".**

***Günel CƏLİLOVA***

# Kişilər arasında müəllim ixtisasına maraq artmağa başlayır

## ”Kişilərin tədrisə və uşaqların tərbiyə prosesinə yanaşması fərqlidir”

**Son 15-20 ildə kişi müəllimlərin orta ümumtəhsil məktəblərindən kütləvi olaraq başqa sahələrə üz tutmasının şahidi olduq. Buna səbəb kimi əsasən müəllimlərin əməkhaqqının aşağı olması göstərilirdi. Kişi müəllimlərin orta məktəblərin pedaqoji heyətindən uzaqlaşması, demək olar ki, məktəblərimizdə işləyən müəllimlərin 90-95 faizinin qadınlardan ibarət olması ilə nəticələndi.**

Bu proses yalnız Azərbaycanda deyil, bütün postsovet məkanında baş verdi. Müəllimlər arasında cinsi balansın pozulması şagirdlərin, daha çox da oğlan uşaqlarının psixologiyasının formalaşmasına mənfi təsir göstərməyə başladı.

Məlum olduğu kimi, son bir neçə ildə ardıcıl olaraq müəllimlərin əməkhaqlarının artması prosesi baş verdi. Bu da kişilərin pedaqoji işə maraq göstərməsinə səbəb olub.

Təhsil naziri Ceyhun Bayramov mətbuata bildirib ki, son illər kişilərin müəllimliyə marağı artıb. "Azərbaycanda qadın müəllimlərin sayı üstünlük təşkil edir. Qısa müddətdə orta məktəblərdə qadın-kişi müəllimlərinin nisbətinin tarazlaşacağını gözləmək isə düzgün olmaz".

Nazir qeyd edib ki, artıq müəllim işləmək üçün müraciət edən kişilərin sayında da artım müşahidə olunur: "Ötən illərlə müqayisədə müraciət edən kişi müəllimlərin sayında artım var. Biz bunu böyük məmnunluq hissi ilə qeyd edirik, çünki bütün sahələrdə olduğu kimi, təhsildə də daha yaxşı nəticələrin əldə edilməsi üçün balansın qorunması vacibdir".



**Kamran Əsədov:** *”Bu gün kişilərin pedaqoji işə maraq göstərməsinə səbəb olan amillərdən biri müəllimlərin əməkhaqqının mütəmadi olaraq dövlətin diqqətində olmasıdır”*

**Tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Azərbaycanın 4481 ümumtəhsil məktəbində çalışan 149,602 müəllimin 71%-ni xanımlar, 29 %-ni isə kişi müəllimlər təşkil edir.** "Əslində, bu rəqəmlər vəziyyətin nə qədər təhlükəli olduğunu göstərir. Orta məktəblərdə kişi müəllimlərin azlığı şagirdlərin xarakterinin formalaşmasına ciddi şəkildə təsir göstərir. Yəni hazırda təhlükə yalnız təhsilin keyfiyyəti, dərsə davamiyyət və ən nəhayət, uşaq xarakterinin formalaşması ilə bağlıdır. Uşaqlar məktəbəqədər təhsil pilləsindən tutmuş, ali məkətəbə qədər ancaq qadın müəllimlərin, eləcə də analarının təsiri altında formalaşırlar ki, bu da onların xarakterinə təsirsiz ötüşmür.

Etiraf edim ki, bu gün müəllimlərin aldığı əməkhaqqı onların aylıq xərclərini ödəmir. Biz 1980-ci illərə nəzər salsaq görərik ki, bu rəqəm 50/50 vəziyyətindədir. Bəzi bölgələrimizdə isə kişi müəllimlərin say faizi daha üstün idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə baş verən hadisələr, Qarabağ müharibəsi, iqtisadi çətinlik müəllim kimi fəaliyyət göstərən böyük sayda kişini bu sahədən uzaqlaşdırdı. 1995-ci ildən sonra ölkədə sabitlik yarandıqdan sonra da müəllimin əməkhaqqının azlığı bu sahədən üz döndərən kişi müəllimlərin sayını azaltmadı.

Hazırda Bakıdakı orta məktəblərdə fəaliyyət göstərən müəllimlərdən 27 mini qadın, 3600-ü isə kişidir. Müəllimlərin məvaciblərinin azlığı kişi pedaqoqların təhsil sahəsindən uzaqlaşmasına səbəb olub. İş o yerə çatdı ki, paytaxt məktəblərində hətta bədən tərbiyəsi və idman dərslərini də qadın müəllimələr tədris etməyə başladılar".

*”... müəllimlərə dövlət qulluqçusu statusunun verilməsi...”*

K.Əsədovun sözlərinə görə, Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın kənd rayonlarında qadın müəllimlər yox dərəcəsində idi. Bu boşluğu doldurmaq üçün Rusiyanın müxtəlif bölgələrindən, eləcə də paytaxt Bakı şəhərindən yerlərə kütləvi şəkildə qadın müəllimlər göndərirdilər. "Müəllim kimi yeni işə başlayan gənc təbii ki, bu maaşla dolana bilməyəcəyinin fərqindədir və müəllimlik diplomunu bir kənara atıb, normal maaşlı iş axtarmağa məcbur olurdu. Dünyanın bir çox inkişaf etmiş ölkəsində uşaq bağçalarında tərbiyəçi qadın yoxdur. Uşaqları yalnız kişilər tərbiyə edirlər. Kişilərin tədrisə və uşaqların tərbiyə prosesinə yanaşması fərqlidir. Bunu müxtəlif cür izah etmək olar. Qadınlar bu məsələdən incimməlidirlər. Bu göstərici onların kişilərdən xarakter baxımından zəif olmaları və ya kişilərdən aşağı səviyyədə tədris etmələri kimi qəbul edilməməlidir. Dünyada bu proses belədir. Hansı ölkələrdə ki, kişilərin sayı qadınların sayından üstündür, bu, təhsilin keyfiyyətinə müsbət mənada təsir edir. Sovet hakimiyyəti dövründə müəllimin böyük güzəşt və imtiyazları var idi, nəqliyyat xərcləri də daxil olmaqla, digər kommunal ödənişlərdən azad idi. Dövlət büdcəsinin vəsaiti hesabına hər il istirahət mərkəzlərinə, sanatoriyalara göndərilirdi. Əlbəttə ki, Sovet hakimiyyəti sosialist ölkə idi, indi isə kapitalizm dövrüdür. Lakin bir çox ölkələrdə müəllimin dövlətin kadr potensialının gücləndirilməsi, formalaşdırılmasında xidmətini nəzərə alaraq, yüksək əməkhaqqı ilə yanaşı, güzəşt və imtiyazlar saxlanıb. Hesab edirəm ki, bu sahəyə yenidən kişi müəllimlərin cəlb edilməsi üçün zəruri olan addımların önündə müəllimlərə dövlət qulluqçusu statusunun verilməsi dayanır. Bundan başqa, dövlət büdcəsinin vəsaiti imkan vermir ki, müəllimin əməkhaqqı ciddi şəkildə artırılsın. O zaman, müəllimi müəyyən olunmuş xərclərdən azad etmək lazımdır. Yəni müəllim işıq, qaz, su kimi xərclərdən azad edilməlidir ki, aldığı əməkhaqqını sosial rifahına yönəldə bilsin.

Bu gün müəllim gözünün işığını, sağlamlığını xalqın gələcəyinə sərf edir, ona ciddi şəkildə diqqət ayırmaq lazımdır. Azı hər altı aydan bir müəllimlərin pulsuz və yüksək səviyyədə tibbi xidməti həyata keçirilməlidir.

Bilirsiniz, müəllimə müqəddəslərə göstərdiyimiz ehtiramı göstərməliyik, səfirlərə verilən təhlükəsizlik və toxunulmazlığı həm də müəllimə verməliyik, deputata verilən əməkhaqqını müəllimə verməliyik.

Cəbhəyanı ərazilərdə fəaliyyət göstərən müəllimlərin əməkhaqqı şəhərdə çalışanlarla müqayisədə iki dəfə çox verilməlidir. Çünki ölkədə fəaliyyət göstərən hər bir vətəndaşı yetişdirən, formalaşdıran müəllimdir".

**K.Əsədov hesab edir ki, son dövrlər müəllimlərin əməkhaqqının qaldırılması kişi müəllimlərin orta məktəblərə maraq göstərməsinə səbəb olur: "Bu gün kişilərin pedaqoji işə maraq göstərməsinə səbəb olan amillərdən biri müəllimlərin əməkhaqqının mütəmadi olaraq dövlətin diqqətində olmasıdır" - deyə ekspert qeyd etdi.**

***İradə SARIYEVA***

**Azərbaycan məktəblərində dövlət tərəfindən müxtəlif layihələr həyata keçirilir. Təhsil Nazirliyi tərəfindən həyata keçirilən bu layihələr müəllimlərin səviyyəsinin artırılmasına, ən başlıcası, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.**

# Özəl orta məktəblərdə müəllimlərin seçilib yerləşdirilməsi dövlət nəzarətindən tam kənarda qalıb - strateji təhlükə mənbəyi...



## *Məlahət Mürşüdlü: "Ümumən, dövlət bu prosesdə iştirak edə və özəl məktəblərdə müəyyən layihələr həyata keçirə bilər"*

Məsələn, artıq neçə ildir müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılır. Əldə olunan nəticələrə uyğun olaraq, müəllimlər seçilir və yerləşdirilir. Bununla yanaşı, 5 ildən bir müəllimlər dövlət vəsaiti hesabına təkmilləşdirmə kurslarına göndərilir. Bu kurslar sayəsində təhsildəki yenilikləri, tədris metodikasındakı yeni yanaşmaları öyrənirlər. Bütün bunlarda məqsəd təlim və tədrisin keyfiyyətini artırmaq, müasir tələblərə uyğunlaşdırmaqdır.

Ancaq dövlət təhsil müəssisələrindən fərqli olaraq, özəl məktəblərdə bu kimi layihələrin həyata keçirilməsində Təhsil Nazirliyi iştirak edə bilmir. Düzdür, həmin məktəblər özəl olduğu üçün, ümumən, onların tədris fəaliyyətinə hər hansı müdaxilə etmək olmaz. Ancaq Gülən məktəblərinin yaratdığı fəsadları nəzərə alsaq, bunun nə qədər vacib olduğu ortaya çıxır. Məsələ ondadır ki, həmin məktəblərdə şagirdlərin beyni, bir növ, yuyulurdu. Milli dəyərlərdən uzaq olan bu məktəblər şagirdləri öz "dəyərləri" çərçivəsində hazırlayırdılar. Bunun da hansı fəsadlar törətdiyi kifayət qədər ictimaiyyətə məlumdur. Ona görə də kim zəmanət verə bilər ki, özəl məktəblərdə tədrislə məşğul olan müəllimlər bütün tələblərə uyğundurlar?

Təhsil strateji bir sahə olduğu üçün bu məsələ çox əhəmiyyət kəsb edir. Ona görə də özəl məktəblərin fəaliyyətinə müdaxilə etmədən Təhsil Nazirliyi metodik baxımdan bunda necə iştirak edə bilər? Ümumən, bunu necə təşkil etmək olar?

**Məsələyə münasibət bildirən təhsil sahəsi üzrə ekspert Məlahət Mürşüdlü buna bir neçə aspektdən yanaşdı:** "Özəl məktəblər dövlət qurumları tərəfindən təsdiq edilmiş lisenziya əsasında, özünün nizamnaməsinə uyğun fəaliyyət göstərirlər. Orada müəllimlərin seçilib yerləşdirilməsi, onların metodik pedaqoji peşəkarlığının artırılması kimi məsələlər birbaşa özəl məktəblərin özlərinə aiddir. Özəl təhsil müəssisəsi tərəfindən Təhsil Nazirliyi dəvət olunarsa, hesab edirəm burada bir problem yoxdur. Ümumən, dövlət bu prosesdə iştirak edə və özəl məktəblərdə müəyyən layihələr həyata keçirə bilər. Çünki özəl məktəblərdə çalışan müəllimlər də Azərbaycan ali məktəblərinin məzunlarıdırlar. Bu o demək deyil ki, dövlət özəl məktəblərin fəaliyyətinə müdaxilə edir. Özəl məktəbin idarəetmə rəhbərliyinin şurası tərəfindən müraciət olunarsa, Təhsil Nazirliyinin bu proseslərdə iştirak etməsində bir problem yoxdur.

### *"Təhsil Nazirliyi metodiki yardım göstərə bilər"*

Xarici ölkələrə aid özəl məktəblərin fəaliyyətinə gəldikdə də analoji yanaşma olmalıdır. Yəni Təhsil Nazirliyi metodiki yardım göstərə bilər. Eyni zamanda, bəzi məsələlərdə məsləhət, zəmanət verə bilər. Bu metodlarla sözügedən prosesdə iştirak edə bilər, amma birbaşa müəllimlərin məktəb daxilində yerləşdirilməsinə, onların metodik elmi, pedaqoji səviyyəsinin artırılmasına məktəb rəhbərinin razılığı olmadan təsir edə bilməz. Çünki özəl məktəblər də ölkə qanunları çərçivəsində fəaliyyət göstərirlər".

*Vidadi ORDAHALLI*

---

**Bağ mövsümü ilə əlaqədar olaraq Sabunçu-Zabrat yolunda tez-tez tıxaclar yaranır. Məsələ ondadır ki, havaların isti keçməsi ilə əlaqədar bir çoxu Bakıətrafı kəndlərdəki bağ evlərində qalır. Oradan işə gedib-gəlirlər. Bununla yanaşı, çimərliyə gedənlərin çoxu da məhz bu yoldan istifadə edir.**

# Sabunçu dairəsindən Zabratadək "öldürücü" tıxacların səbəbi - yolboyu obyektlər və avtomobil parklamaları...



## *Azər Allahverənov: "Yol kənarında yerləşən obyektlər qarşısında dayanma-durma qaydalarına nəzarət mexanizmi yaradılmalıdır"*

Bu səbəbdən Sabunçu-Zabrat yolunda səhər və axşam saatlarında avtomobillərin sayı həddən artıq çox olur.

Sözügedən yolun uyğun alternativi yoxdur. Dolayı alternativ yollar olsa da, məsafəcə uzaq olduğundan, sürücülər həmin yollardan istifadə etməkdə maraqlı olmurlar. Xüsusən də həftənin bazar və cümə günlərində yolda tıxaclar daha çox müşahidə edilir. Bunun bir səbəbi onunla əlaqədardır ki, paytaxt sakinlərinin bir qismi həftəsonu bağa gedir. Bütün bunlar təbii ki, Sabunçu-Zabrat yolunda hərəkət intensivliyinin artmasına öz təsirini göstərir.

Tıxacın yaranmasının bir səbəbi də yolboyu müxtəlif satış və xidmət obyektlərinin yerləşməsi ilə əlaqədardır. Problem ondadır ki, obyektlərin qarşısında, daha dəqiq desək, yola düşən hissədə avtomobillər saxlanır. Kimi maşını park etmək məqsədilə, kimisi də digər məqsədlər üçün saxlamalı olur. İstənilən halda, bu, avtomobillərin hərəkət intensivliyinin yüksək olduğu yolda intervalın pozulmasına səbəb olur ki, nəticədə tıxac yaranır. Tıxacın yaranma səbəblərindən biri də məhz avtomobillərin yolun hərəkət hissəsində saxlanmasıdır. Obyektlərin qarşısında avtomobillər park edilməsə, bəlkə də belə böyük tıxaclar yaranmaz.

Məsələ ilə əlaqədar Bakı Nəqliyyat Agentliyindən münasibət öyrənməyə çalışsaq da, bu mümkün olmadı.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, bu problem nəinki Sabunçu-Zabrat yolunda, digər yollarda da müşahidə edilir:** "Həmin obyektlərin qarşısında dayanacağın olması, obyektlərin anbarının girişinin olmaması yolun zəbt olunmasına gətirib çıxarır. Dəfələrlə belə halların şahidi oluruq. Hansısa ticarət obyektinin qarşısında avtomobillər yolun 2-ci, hətta 3-cü sırasında dururlar. Ekspeditorlar obyektə mal gətirəndə tıxac yaranır. Bütün bunlar, əlbəttə ki, xoşagəlməz mənzərənin yaranmasına səbəb olur. Belə hallarla necə mübarizə aparılmalıdır? Birincisi, dayanma-durma qaydalarını pozan sürücülərə qarşı daha sərt cəza tədbirləri görülməlidir. Onların üzərində nəzarət gücləndirilməlidir. Həmin obyektlərin qarşısında ikinci-üçüncü cərgədə duran avtomobillər varsa, onlar birmənalı şəkildə cərimələnməlidir. İkincisi, həmin obyektlərin sahibləri ilə müəyyən iş aparılmalıdır ki, onlara hansısa ərzaq məhsulları gətirən şirkətin avtomobilləri digər alternativ variantlardan istifadə etsinlər. Məsələn, dükanın imkanları varsa, onun həyətində belə bir imkanlar yaradılsın. Ancaq müşahidələr göstərir ki, ekspeditorlar bunda maraqlı deyillər. Onlar obyektin qarşısında durmağa və yolun hərəkət hissəsini zəbt etməyə üstünlük verirlər. Çünki onlar bu minvalla yükü daha tez boşaltmaq istəyirlər.

### *"İkinci-üçüncü cərgədə duran avtomobillər varsa, onlar birmənalı şəkildə cərimələnməlidir"*

**Ona görə də yol kənarında yerləşən obyektlər qarşısında dayanma-durma qaydalarına nəzarət mexanizmi yaradılmalıdır. Hesab edirəm ki, bu kimi kompleks tədbirlər görülsə, nəticə əldə etmək mümkündür".**

*Vidadi ORDAHALLI*

№ 124 (4022) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

16 İYUL 2019-cu il



## Əlləri niyə gündə bir neçə dəfə yuxarı qaldırmaq lazımdır?

**İnsan qollarının təbii vəziyyəti aşağıdır. Bununla belə, fizioterapevtlər hesab edir ki, gün ərzində əlləri yuxarı doğru qaldırmaq çox faydalıdır. "Milli.Az" xəbər verir ki, əlləri yuxarı qaldırmaq orqanizm üçün bir çox cəhətdən faydalıdır.**

Birincisi, əllər qaldırıldıqda, mədə-bağırsaq traktı az qıvrılır, bu da qidanın sürətlə keçməsinə kömək edir. Beləliklə, çürümə və fermentasiya proseslərinin qarşısının alınması, disbakteriozun inkişafı profilaktikası baş verir. İkincisi, əllərinizi yuxarı qaldırmaqla, onların sallanmasına mane olursunuz. Sallanmış qollar onurğa sütununu deformasiya edir ki, bu da nəticədə osteokondroz və digər xəstəliklərin yaranmasına səbəb olur. Qollarınızı yuxarı doğru qaldırmaqla onurğa sütununun dartılmasına imkan verirsiniz, həmçinin elastikliyi inkişaf etdirirsiniz. Üçüncüsü, yaşla bağlı olaraq orqanlar və döş necəsə qarın boşluğuna çökürlər, öz təbii yerini dəyişirlər. Məsələn, "uzanmış" ürək termini var. Bu, başqa orqanlara da aiddir. Odur ki, əllərinizi hər gün yuxarı qaldırmaqla daxili orqanları da yuxarı doğru çəkir və aşağı çökməsinin qarşısını alırsınız. Bundan başqa, sallanmış qarnı və zəifləmiş qarın əzələlərini bərpa edirsiniz. Əlləri qaldırmaqla qarının əzələlərini bərkidirsiniz. Dördüncüsü, əlləri sadəcə yeməkdən sonra deyil, içkidən sonra da yuxarı qaldırmaq lazımdır. Belə olan halda su orqanizmdə uzun müddət qalmır. O, bağırsaqlardan tez keçir, onun daxili divarlarına yapışan bütün şlakları silib təmizləyir. Yeməkdən 20-30 dəqiqə əvvəl 1-1,5 stəkan adi su için və əllərini yuxarı qaldırın. Bu, xüsusilə qəbizliyi olan insanlar üçün faydalıdır. Qeyd: Qolları şəkildə göstərildiyi kimi əlləri birləşdirib yuxarı qaldırmaq və bir müddət belə gəzmək daha yaxşıdır.

### Elan

Şəki şəhər sakini Salamov Ramazan Bayramşərif oğlunun adına verilmiş 020923 saylı Qarabağ veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Orta Zəyzid kənd sakini Abdusalamov Nizami Əliosət oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

İbrahimov İbrahim Qurbanəli oğlunun adına, Abşeron rayonu, Hökməli qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (seriya MA №0163950) itdiyi üçün etibarsız sayılır.

Əliyev Tofiq İsgəndər oğlunun adına, Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsindəki 10.2 ha torpaq sahəsinə verilmiş çıxarış (seriya RX №0085297) itdiyi üçün etibarsız sayılır.



## Misirdə iki ən qədim piramida qonaqlar üçün açıldı

**Misirdə iki ən qədim piramida ictimaiyyət üçün açılıb. "The Sun" bildirir ki, 1965-ci ildən sonra ilk dəfə misirlilərə və turistlərə oradakı iki ən qədim piramidaya daxil olmağa icazə verilib.**

Əraziyə gələn qonaqlar üçün 80 metr dərinliyə enərək ehramların içini seyr etmək şansı yaradılıb. Bu ehramlardan biri "Bent" piramidasıdır. Firon Sneferunun dövründə qurulan piramidanın hündürlüyü 101 metrdir. Ehram Qahirənin cənubunda, Qizada, Daşur nekropolisində yerləşir. Onun 4600-dən çox yaşı var. Qonaqlar həmçinin adıçəkilən fironun xanımı Hetepheres üçün tikilən piramidaya da daxil olub, gəzə bilərlər.

## Paraşütlə tullanan 10 yaşlı qız rekorda imza atdı



**Rusiyanın Yekaterinburq şəhər sakini Karolina Çörnıx paraşütlə tullanan ən gənc ekstremalçı kimi Rusiyanın Rekordlar Kitabına düşüb.**

"Qafqazinfo" xəbər verir ki, 10 yaşlı qız təlimatçı ilə bərabər 2,5 min metr hündürlükdən tullanıb. "Mənə, ümumiyyətlə, qorxulu deyildi! Üçə qədər sayıb tullanmaq lazım idi, amma biz artıq "iki" deyəndə tullandıq! Mən hətta gülürdüm, bizi kamera çəkirdi. İndi 4000 metrdən tullanmaq istəyirəm", - gənc rekordçu bildirib. Qızın anası Yelenanın sözlərinə görə, paraşütlə tullanma Karolinan arzusu idi. Ana qeyd edib ki, qızı indi Elbrus zirvəsini (5642 m) fəth etmək istəyir və artıq məşqlərə başlayıb.

## Qara şokoladın ürəyə müsbət təsiri

**Rusiyalı alim, dietoloq Antonina Starodubova qara şokoladın ürəyə müsbət təsirlərindən danışıb. "Qara şokolad qəbul etmək metabolik göstəricilərin yaxşılaşması ilə nəticələnir.**

Eyni zamanda ürək-damar sistemi xəstəlikləri riskini də azaldır", - deyə Antonina deyib. "Ölkə.az" bildirir ki, alim əlavə edib ki, qara şokoladın tərkibində olan kakao beyinin fəaliyyətinə, şəkərin və qandakı lipidin səviyyəsinə təsir edir. Bununla yanaşı, şokoladdan az istifadə etmək lazımdır. Çünki kalorisi çoxdur.





**Qoç** - Günün ilk yarısında xırda problemlər nigaranlıq yaradacaq. Çoxdan bəri həllini tələb edən məsələ yenidən gündəmdədir. Tələsik davranmayın, düşünülməmiş qərarlar verməyin.



**Buğa** - Şəxsi planlarınızı reallaşdırmaq üçün müstəqil çalışaraq tək qala bilməyəcəksiniz. Yaxınlarınız sizdən diqqət gözləyirlər. Ailə üzvlərinin yardım istəklərinə soyuq yanaşsanız, münaqişə istisna deyil.



**Əkizlər** - Bilik və bacarıqlarınızı tam nümayiş etdirin. Ətrafınızdakı insanlar sizdən təşəbbüskarlıq, təşkilatçılıq bacarığının izharını və ümumi məqsədlərə çatmaq üçün pozitiv davranış gözləyirlər.



**Xərçəng** - Diqqət mərkəzində olacaqsınız. Narahatlıq və təlaşa qapılaraq fəsadları ağır ola biləcək səhvlərə yol verməyin. Günün ikinci yarısında münasibətlərdəki problemləri aradan qaldırmaq üçün təşəbbüskar siz olun.



**Şir** - Emosiyalarınız artacaq, hissləriniz aktivləşəcək. Öz mövqeyini mütləq həqiqət sayan insanlarla ehtiyatlı davranın. Yalnız peşəkar fəaliyyət müstəvisində mübahisələr etmək olar.



**Qız** - Eyni vaxtda bir neçə işə başlamayın. Yalnız təcili həll tələb edən, cari məsələlərlə məşğul olun. Gecikmə, təxirəsalma, çalışdığınız insanların qeyri-dəqiqliyi istisna deyil. Anlaşılmazlıq münaqişə vəziyyəti yarada bilər.



**Tərəzi** - Hadisələrə süni təkan verməyin. Spontan olayların məcrasında hərəkət etməyin. Bununla yanaşı, situasiyanı nəzarətdə saxlayın. Yalnız öz maraqlarınızı düşünərək başqalarının mənafelərini kobud şəkildə qulaqardına vurmayın.



**Əqrəb** - Qarşınıza konkret məqsəd qoyubsunuzsa, plana uyğun hərəkət edin. Qətiyyətli, iradəli və əzmkar olun. Dürüst kursla irəlilədiyinizə əmin olun. Peşəkarlığınızı nümayiş etdirin.



**Oxatan** - Tələskənliyə yol verməyin, aramla çalışın. Qərarların qəbulunda müstəqil olun. Muxtariyyətdə xeyir var. Müəyyən addımları ətrafınızdakı insanlarla razılaşdırmalısınızsa, emosional amilləri mütləq nəzərə alın.



**Oğlaq** - Pozitiv olun, bədbin fikirlərdən uzaq durun. Tənbəllik etməyin. Ailə qayğıları və məişət işlərini ön plana çıxararaq bilavasitə məşğul olmanız gərəkən məsələləri unutmayın. Alış-veriş üçün münasib zamandır.



**Dolça** - Daşınmaz əmlak və ərzaqla bağlı əməliyyatlar uğurlu nəticə verə bilər. Əldə etdiyiniz nailiyyətlərinizin ətrafınızdakı insanlar tərəfindən təqdirini gözləməyin. Kimsəyə fikir vermədən irəliləyin.



**Balıqlar** - Rahatlığa can ataraq qarşınızdakı sədləri və maneələri görməzdən gəlməyin. Çətinliklər həllini tələb edir. Yaşam arealının rekonstruksiyası üçün əlverişli zamandır. Psixoloji amillərə diqqətli yanaşın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ayda yadplanetli meyiti tapılıb?

**Ural vilayətindən olan tədqiqatçı Valentin Deqteryev NASA tərəfindən Ayın səthində lentə alınan fotolarda maraqlı kəşfə imza atıb.**

"Ölkə.az" xəbər verir ki, Valentin amerikalı kosmonavt Edvin Oldrinin Aydakı fotosunda onun ayaqları altında daşlaşmış yadplanetli kəllə sümüyü olduğunu iddia edib. Bu kəşf Yerin peykində həyatın olduğuna dair teoriyanı sübut edə bilər. Simmetrik göz çuxuru, burun dəliyi, ağız dəliyi.

Bunlar hər üç fotoda görünür. Bu, daş deyil, kölgə və ya ona bənzər bir şey deyil.

Qeyd edim ki, fotoların birində bu məxluqun onurğa sütununa bənzəyən bir qalıq da var", - deyə Deqtyarev öz bloquna yazıb.

O, qeyd edib ki, pilot ayağının altındakı qəribə əşyaya fikir verməyib.

Əgər Edvin ayağının altına baxsaydı, təkamül nəzəriyyəsini yeni faktlar qazandırardı.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.